"Ermənilər tərk etdikləri Zabux və Sus kəndlərində apara bilmədiklərini yandırıb məhv ediblər"




3

# Bakı və Moskva, eləcə də Brüssel gözləmə mövqeyindədirlər...

## Vladimir Putinin İlham Əliyevə telefon zəngi etməsi arxasında hansı məqamlar dayanır?



5



Səs

№ 160 (6601) 6 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

# Ermənilərin çıxarmalı olduqları NƏTİCƏLƏR



12

## Dünya bazarında qiymətlər necə dəyişir?



4

## "Qıtlıq qapıdadır"...



5

## Putinin düşməni İngiltərənin Baş naziri oldu



10

## Uşaqlara qarşı İŞGƏNCƏLƏR ARTIR: Bəs ÇIXIŞ YOLU nədir?



8



16

## DİQQƏT: Duzun orqanizmə vurduğu 6 ziyan



## 1 milyon manatlıq dələduzluq: İnsanları belə aldatdılar!

# Azərbaycan-İtaliya münasibətləri: ZİRVƏYƏ DOĞRU

## İLHAM ƏLİYEV: "Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır"



Azərbaycan istər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi bir çox mötəbər qurumlarla əməkdaşlığı geniş olub nüfuzu artıb və bu gün 30 illik öz torpaqlarını əsarətdən qurtararaq 8 noyabrda Böyük Qələbə ilə Qarabağ Azərbaycandır!və NİDASINI qoyduqdan sonra bir çox ölkələr, beynəlxalq təşkilatlar ölkəmizə olan nüfuzu daha da artıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Bu baxımdan Azərbaycanın ən yaxın tərəfdaşlarından biri Avropa qitəsinin aparıcı dövləti olan İtaliyadır. İtaliya-Azərbaycan əlaqələrinin ilbəil inkişaf etməsinin əsas göstərici isə Prezident İlham Əliyevin Romaya rəsmi və işgüzar səfərləri, səfərlər zamanı imzalanan ikitərəfli sənədlər, imzalanan sənədlərin vaxtında icrasıdır. İtaliya Prezidenti Sercio Mattarellanın sentyabrın 2-də rəsmi dəvəti əsasında və iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümündə baş tutan işgüzar səfərin məqsədi Prezident İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı ölkələrimiz arasında imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin icrası prosesində bir sıra sahələr üzrə aktual məsələlərin müzakirə edilməsi, bu sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və nəticə yönümlü növbəti addımların müəyyən edilməsidir.

### Azərbaycan-İtaliya nümunəsi: Yaxşı dost dar gündə tanınar

Azərbaycana yaxın dost olan İtaliya işğal altındakı torpaqlarımızın azad olunması əməliyyatları dövründə müxtəlif səviyyələrdə rəsmi Bakının mövqeyini dəstəklədiyini, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu bəyan edərək haqlının tərəfində dayandığını dünyaya nümayiş etdirdi. Həmçinin, Azərbaycan xalqı 44 günlük Vətən savaşında İtaliya mediasının haqq işimizə, Qarabağ müharibəsinə obyektiv yanaşmasının şahidi oldu. Belə ki, Prezident İlham Əliyevin oktyabrın 26-da İtaliyanın Rai-1 televiziya kanalına, ”La Republica” qəzetinə verdiyi müsahibələrin geniş işıqlandırılması və digər İtaliya KİV-lərində müharibə dövründə Qarabağ həqiqətlərini əks etdirən məlumatların dünyaya çatdırılması bu ölkənin yanımızda olduğunu növbəti dəfə sübut etdi. Həmçinin İtaliya ilə Azərbaycanı bir-birinə sıx tellərlə bağlayan yalnız siyasi və iqtisadi amillər deyil, humanitar layihələr də mövcuddur. Belə ki, Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılması ideyasını vurğulaya bilərik.

### İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək

Prezident İlham Əliyev Romada İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimində çıxışı zamanı bildirib ki, təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq: ”İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq”.Prezident İlham Əliyev bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya xarici işlər naziri cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməlinin qoyulduğunu vurğulayıb: ”İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək. Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti, Roma Sapienza Universiteti - bu adlar İtaliyanın kənarında da məşhurdur. Onu da bildirməliyəm ki, İtaliya-Azərbaycan Universitetinin nəzdində iki institut - Kənd Təsərrüfatı və Qida Elmləri İnstitutu və Dizayn və Memarlıq İnstitutu fəaliyyət göstərəcək”.Dövlət başçısı İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalandığını qeyd edib: ”Bizim çox güclü siyasi-iqtisadi əlaqələrimiz mövcuddur. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb”.

### Əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq

Prezident İlham Əliyev sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimində çıxışı zamanı bir daha əmin olduğunu bildirərək vurğulayıb ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq: ”Bugünkü mərasim isə onu göstərir ki, biz gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcəyik. Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda, əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, mən hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək”.”İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bizim çox güclü siyasi-iqtisadi əlaqələrimiz mövcuddur”,-deyən Prezident İlham Əliyev qeyd edib ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır: ”Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb”.

### Ermənistanla sülhə nail olmaq planlarımızda nələr əldə edəcəyimiz bizim üçün maraqlıdır

”Yeni müstəqil bir ölkə kimi, özümüzü xarici amillərdən müdafiə etmək bizim üçün əsas məsələ olacaq. Çünki bizim ölkələrimiz daxilən artıq inteqrasiya edib”. Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı söyləyib.

### Biz heç zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq

Prezident İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı söyləyib ki, biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq: ”Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb...Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik. Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir. Biz müstəqil olmaq üçün iqtisadi anlamda yatırımlar etmişik. Yoxsa biz özümüzü asılı hiss edərdik. Azərbaycan imperiyaların hissəsi olub, biz Sovet İttifaqının bir parçası olmuşuq. Artıq 30 ildir ki, bizim insanlarımız müstəqildir və biz əbədi olaraq müstəqil yaşamaq istəyirik. Bunun üçün biz güclü olmalıyıq. Bizim yaxşı dostlarımız olmalıdır”.

### Avropa bizim üçün yeganə bazar deyil

Bizim ehtiyatlarımıza gəldikdə, mən konfransda bu haqda danışdım. Təsdiq edilmiş ehtiyatlarımızın həcmi ən azı 2,6 trilyon kubmetr qaz təşkil edir”.Bunu Prezident İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində



İtaliyanın ”İl Sole 24 Ore” qəzetinin müxbiri Roberto Boncorniyə müsahibəsində deyib.Səfər çərçivəsində Prezident İlham Əliyev yerli ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində həmçinin, qalib ölkə olan Azərbaycanın haqlı mövqeyi, regionda vəziyyətin sülhə doğru inkişafı baxımından aparılan danışıqlar, Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərində infrastrukturun yaradılması istiqamətində görülən işlər barədə məlumat verib.Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri ikitərəfli əlaqələr və əməkdaşlıq münasibətləri baxımından keyfiyyətcə yeni bir mərhələnin əsasını qoymaqla, həm də regional, beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyət kəsb etmiş oldu. Ümumiyyətlə Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfərinin yekunları iki ölkə arasında münasibətlərin qarşılıqlı maraqlar əsasında uğurla inkişaf etdiyini bir daha təsdiqləməklə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı və strateji partnyor kimi tanınmasının daha bir nümayiş etdirdi. Səfər çərçivəsində imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar iki dövlət arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmin yaratmış oldu.

**RƏFİQƏ KAMALQIZI**

# “Ermənilər tərk etdikləri Zabux və Sus kəndlərində apara bilmədiklərini yandırıb məhv ediblər”

## İndoneziya saytları Laçın şəhərinin ölkəmizin nəzarətinə keçməsi barədə yazır

**Laçın şəhərinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı ölkəmizin İndoneziyadakı səfirliyini təşəbbüsü ilə Azərbaycan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri professor Tahirə Allahyarovanın AZƏRTAC-a verdiyi müsahibə bu ölkənin saytlarında yayımlanıb.**

”Zəfərimizin Laçın dərsləri: Qələbəmizin dönüş nöqtəsi və Ermənistan dövlətinin terrorçu-vandalizm siyasəti üçün əcəl zəngləri” başlıqlı müsahibə ”gpriority.co.id”, ”disway.id”, ”citayambersatu.com”, ”mancode.id”, ”heaptalk.com”, ”sinarharapan.id” və ”warnaplus.com” saytlarında AZ?RTAC-a istinadla yer alıb.

Məqalələrdə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin strateji diplomatik zəkası, qətiyyəti, iradəsi və hərbi-siyasi rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazandığı, Ermənistanın isə kapitulyasiya aktını imzaladığı əksini tapıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir güllə atılmadan belə Azərbaycana təhvil verildiyi qeyd olunub.

Yazılarda Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında Laçın şəhərinin, Zabux və Sus kəndlərinin boşaldılaraq geri qaytarılmasının da dövlətimizin başçısının şəxsi iradəsi ilə təsbit edildiyi bildirilib. Bununla yanaşı, Qarabağda Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazidə ermənilərin Azərbaycandan 2022-ci ilin avqust ayının sonuna qədər vaxt verilməsini xahiş etdiyi qeyd olunub. Ədalət və haqq müharibəsinin bütün qanunlarına əməl edən dövlətimizin ermənilər üçün bu şansı da yaratdığı, Ermənistanın Laçın şəhəri, Zabux və Sus kəndlərinin tamamilə boşaldılması öhdəliyinin avqust ayının sonuna kimi yekunlaşdığı vurğulanıb.

Məqalələrdə, həmçinin ermənilərin tərk etdikləri Zabux və Sus kəndlərində apara bilmədiklərini yandırdığı, məhv etdiyi qeyd olunub. Yerli və beynəlxalq mediada evlərə od vurulması, meşələrin alova qərq edilməsi, torpaqlara minaların basdırılması, mədəni abidələrə qarşı vandalizm aktlarının törədilməsi, təbiətə qarşı cinayətlərin yenidən dəyişməz xəbər başlıqlarına çevrildiyi bildirilib.













Ermənistanın insanlıq əleyhinə cinayətlər törətməkdə, beynəlxalq konvensiyaları kobud şəkildə pozmaqda, regional və qlobal təhlükəsizliyə ciddi təhlükə törədən dövlət olmasını nümayiş etdirməkdə davam etdiyi diqqətə çatdırılıb. Bütün bunların fonunda erməni əhalinin etnik təmizləməyə məruz qalması ilə bağlı Ermənistan dövlətinin əsassız hay-küyü və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək kampaniyasına başladığı vurğulanıb.

Ermənistanın son 30 ildə Qarabağda həyata keçirdiyi terrorçuluğun, vandalizmin çoxşaxəli olmaqla, siyasi, hüquqi, iqtisadi, ekoloji, mülkiyyət əleyhinə, insan hüquqları, mədəni soyqırımı, şəhərlərin məhv edilməsi və təbiətə qarşı törədilən cinayətlərin tam bir kompleksini formalaşdırdığı qeyd edilib. Cənnətməkan Qarabağda ”yandırılmış torpaq” siyasətini, təbiətə qarşı ən ağır cinayətləri törətdiyi, təbii sərvətlərimizi qanunsuz istismar etdiyi, coğrafi landşaftı və torpaq kadastrını viran qoyduğu əksini tapıb. Həmçinin Qarabağda bütöv şəhərləri yer üzündən silməklə beynəlxalq konvensiyaları kobud şəkildə pozduğu, bundan əlavə, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma kimi hərbi və insanlıq əleyhinə cinayətlər törətdiyi yazılıb.

Məqalələrdə Tahirə Allahyarovanın sözləri sitat gətirilib: ”Kapitulyasiya aktının reallaşdırılması fonunda Azərbaycan dövləti dünyada ilk dəfə baş verən XXI əsrin ən geniş miqyaslı qlobal humanitar layihəsini - 30 ildən sonra azad Qarabağa qaçqın və məcburi köçkünlərin qayıdışını gerçəkləşdirir. Bu gün Laçın və Zabuxda terror mahiyyətli dövlət siyasətini davam etdirən Ermənistana törətdiyi bu cinayətlərin ağır yükü heç də asan başa gəlməyəcək. İşğalçılıq siyasətinin davam etdiyi otuz ilin hesabı bu ölkədən istəniləcək”.

Zəfər tarixinin yazılması ilə dövlətimizin nəinki son iki ildə, həmçinin paralel olaraq, son 30 ildə törədilən bütün cinayətlər kompleksini heç bir istisna olmadan beynəlxalq hüquqi instansiyalara daşınmasını təmin edəcəyi fikrinə yer verilib. Azərbaycana vurulmuş ziyanın hesablandığı, Azərbaycanın Baş Prokurorluğunun müvafiq cinayət işlərini qaldırdığı vurğulanıb. Növbəti mərhələnin beynəlxalq məhkəmə və tribunallarda Ermənistanın terrorçu və vandalizm dövlət siyasəti nəticəsində Azərbaycana vurulan ziyanla bağlı təzminatın tələb edilməsi mərhələsi olduğu diqqətə çatdırılıb.

# YAP-ın 30-cu ildönümü ilə əlaqədar fərdi yazı müsabiqəsi elan edilir

Yeni Azərbaycan Partiyasının 30-cu ildönümü ilə əlaqədar fərdi yazı müsabiqəsi elan edilib.

**Müsabiqənin məqsədi:**
Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin müasir çağırışlara və milli maraqlara əsaslanan siyasətinin, qalib xalqın Zəfər partiyası olan Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yolunun araşdırılması və təbliğ edilməsi, jurnalistlərin yaradıcı əməyinin qiymətləndirilməsi.

**Müsabiqənin mövzuları:**
1. Heydər Əliyev ideyaları - yeni Azərbaycanın dövlətçilik irsi
2. Yeni Azərbaycan Partiyası - Müzəffər Liderlə yeni zəfərlərə doğru
3. Yeni Azərbaycan Partiyasının VII Qurultayı: yeni mərhələ, yeni hədəflər

**Müsabiqədə iştirak**
Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

**Müsabiqəyə təqdim olunan yazılara aid tələblər**
1. Dərc olunmuş yazıların sərlövhələri təklif olunmuş mövzulara uyğun olmalıdır.
2. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
3. Müsabiqə iştirakçılarının yazıları çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır.

**Yazıların qəbulu qaydaları**
1. Yazının dərc olunduğu mətbuat orqanı (çap variantı) - 1 nüsxə
2. Yazının Elektron variantı (Times New Roman (12) şriftində - CD diskdə) - 1 nüsxə
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməməlidir) - 3 nüsxə
4. Yazıların həcmi: 1 səhifə (A3) olmalıdır (9-11 min işarə)

**Tələb olunan sənədlər**
1. Şəxsiyyət vəsiqəsinin surəti
2. Jurnalist vəsiqəsinin surəti
3. Şəxsi bank rekvizitləri (hesabın aktiv olması təsdiqlənməlidir)

**Qiymətləndirmə meyarları:**
- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq dərəcəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;
- ictimai maraqların müdafiəsi.

**Müsabiqədəiştirak:**
Müsabiqədə iştirak etmək üçün sənədlər Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına (Bakı şəhəri, S.Senyuşkin küçəsi 26) təqdim edilməlidir.

**Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**
I yer (bir) - 700 manat
II yer (iki) - 500 manat
III yer (üç) - 300 manat
Həvəsləndirici (on yer) - 200 manat

***Müsabiqədə iştirak üçün müraciətlərin qəbulu 07 oktyabr 2022-ci il saat 18:00-dək davam edəcəkdir.***
***Əlaqə telefonları: 012 490 80 33 / 077 440 02 00***
***Elektron ünvan: yapmetbuat@mail.ru***

**Əsas ərzaqlıq olan buğda istehsalçısı ölkələrdə yaranmış siyasi və hərbi münaqişələr səbəbilə dünya bazarlarında ciddi qiymət və tədarük riskləri, habelə həmin məhsulların qlobal ticarətində məhdudiyyətlər müşahidə olunur. Münaqişələrin yaratdığı qeyri-müəyyənliklər, ərzaqlıq buğdanın logistik xərclərinin kəskin şəkildə yüksəlməsi, ixracın məhdudluğu və digər istehsalçı ölkələrin tətbiq etdiyi ixrac qadağaları dünya bazarında təklifin azalmasına və qiymətlərin yüksəlməsinə gətirib çıxarır.**

Ərzağın qiyməti əhali üçün ən ağrılı mövzudur, çünki ölkəmizdə bu kateqoriya malların xərclərini yüksək qiymətlə qarşılayır.

**Bəs bundan sonra qiymət dəyişiklikləri necə olacaq?**



# Dünya bazarında qiymətlər necə dəyişir?

Dünya ölkələrinə nəzər yetirdikdə avqust ayında ABŞ-da yalnız yağ bahalaşıb. Lakin bu qiymət artımı digər məhsulların qiymətinin azalması ilə daha çox kompensasiya edilir. İndoneziyada ixracın artmasının təsiri ilə palma yağı ucuzlaşıb. Günəbaxan yağının qiymətləri isə Ukrayna dəniz limanları vasitəsilə tədarükün tədricən bərpası ilə əlaqədar olaraq azalıb.

Hindistanda böyük həcmdə ixracat səbəbindən, eləcə də Braziliyada aşağı etanol qiymətlərinin artacağı qeyd olunur.

Avqust ayında kərə yağı və süd məhsularının beynəlxalq kotirovkalarının azalması kifayət qədər ehtiyatlar fonunda aparıcı idxalçıların əksəriyyəti tərəfindən bazarda tələbin azalması ilə izah olunur. Bundan əlavə, əsas istehsal bölgələrində süd istehsalının azalmasına baxmayaraq, mövsümün başladığı Yeni Zelandiyadan tədarükün gözlənilən artımı qiymətlərin aşağı düşməsinə kömək edib.

Ay ərzində ətin qiyməti 1,5% ucuzlaşmışdır. Dünyada mal ətinin qiymətinin aşağı düşməsi həm aparıcı ixracatçı ölkələrin bəzilərində daxili tələbatın zəif olması, həm də Avstraliyadan tədarükün müəyyən qədər artması ilə bağlı olduğu deyilir.

Nəhayət, taxılın qiyməti 1,4% ucuzlaşıb. İndiyədək taxılın qiymətləri bir il əvvəldən 14,8% baha idi. Avqustda buğdanın qiyməti 5,1% ucuzlaşıb. Bu, Kanada, ABŞ və Rusiyada məhsul yığımı proqnozlarının yaxşılaşdırılması, həmçinin məhsul yığımının davam etdiyi Şimal yarımkürəsində tədarükün mövsümi artımı ilə bağlıdır. Əlavə olaraq, beş aydan çox fasilədən sonra Ukraynanın Qara dəniz limanlarından ixracın bərpası qiymətin ucuzlaşmasına səbəb olub. Bununla belə, beynəlxalq buğda qiymətləri hələ də ötən ilin avqust ayı ilə müqayisədə 10,6% baha olaraq qalır. Avqustun sonunda yem taxılının dünya qiymətləri, əksinə, bir qədər artıb. Keçən illə müqayisədə 12,4% yüksəkdir. Dünya qarğıdalı qiymətləri 1,5% artıb. Eyni zamanda, Ukraynadan ixracın bərpası qiymətlərin daha çox yüksəlməsinə imkan verməyib. Bununla yanaşı, arpanın dünya qiymətləri 3,8% ucuzlaşıb. Düyü qiymətləri isə dəyişməz olaraq qalır.

Rusiyanın Ukraynaya hücumu dünya bazarında demək olar ki düzəni pozmuşdur. Əsasən də ərzaq məhsullarının hərəkət zənciri qırıldı, bəzi hallarda zəiflədi. Bundan dolayı nəqliyyat xərcləri artdı, Rusiyaya təzyiq məqsədi ilə Avropa ölkələri və Amerika, Böyük Britaniya ilə həmfikir olan digər dövlətlər təzyiq vasitəsi kimi Rusiyanın enerji daşıyıcılarından imtina eləmişdir. Bu da dünya bazarında enerji daşıyıcılarının qiymətlərinin bahalaşmasına gətirib çıxartdı. Dünya bazarında enerji daşıyıcılarının bahalaşması isə dünyada elektrik enerjisinin, gübrənin və yenə də nəqliyyat xərclərinin artmasına səbəb oldu. May ayının əvvəllərində ərzaq qiymətləri iki dəfə, gübrə qiymətləri 2/4 dəfə bahalaşmışdır. Kənd təsərrüfatı məhsullarının mövsümi dövrü başlayır və bu mövsümi dövr bir qədər qiymət bahalaşmasını cilovlayıb. Yəni bahalaşmanın sürəti az da olsa azalmışdır. Xüsusilə ərzaq buğdası, bitki yağları, ağartı məhsulları bahalaşmışdır. Ərzaq buğdası rekord həddə çataraq qiyməti 440 avroya qədər qalxmışdır. Lakin avqust ayının sonlarında Ukraynadan ərzaq buğdasının ixracını mümkün olması səbəbindən buğdanın qiyməti dünya bazarlarında bir qədər sabitləşdi. Hal hazırda avqustun 22 -dən indiyə qədər Ukraynadan 1,5 milyon ton qiyməti ilə təkcə ərzaq buğdası ixrac edilib.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** SİA-ya açıqlamasında qeyd edir.

Artıq bilirik ki, əksər regionlarda taxıl biçini başa çatıb. Rusiya təxminən 88 milyon, Qazaxıstan 50 milyon, Ukrayna 80 milyon ton buğda istehsal etmişdir. Yeni mövsümdə Azərbaycanın ətrafında olan potensial ərzaq buğdası istehsalçıları təxminən 200 milyon ton ərzaq buğdası istehsal edib. Azərbaycana isə təxminən 1,2 milyon ton ərzaq buğdası lazımdır. Potensial 200 milyon tondan 1,2 milyon ton buğda cəlb eləmək o qədər də çətin iş deyil. Əvvələr daha çox Rusiya buğdasına üstünlük verirdik, yenə də Rusiya buğdası üstünlük təşkil edəcək. Lakin idxal bir qədər azalıb əvəzində Qazaxıstandan daha çox buğda idxal etməyə başlamışıq. İdxal etdiyimiz buğdanın 70/80 faizi Rusiyadan, 20/30 faizi Qazaxıstandan olacaq. Hesab edirəm ki, kənd təsərrüfatı mövsümi bitəndən sonra yeni bahalaşma dalğası ilə üzləşəcəyik. Hal-hazırda dünyada və ölkə daxilində ərzaq məhsullarının qiymətərin bahalaşmasının bir qədər azalması mövsüm ilə əlaqədardır. Mövsüm bitəndən sonra ərzaq məhsulları bazarda bir qədər azalacaq və onda qiymətlərin bahalaşmasını daha çox hiss edəcəyik. Sözsüz ki, dünya bazarında qiymətlərin bahalaşması başlayacaq və ölkədaxili bazarına təsir edəcək. Dünya bazarında ərzaq qiymətlərinin bahalaşması əsasən enerji daşıyıcılarının bahalaşması ilə əlaqədardır.



Rusiya-Ukrayna müharibəsi nə qədər ki davam edəcək o vaxta kimi dünyada enerji daşıyıcıları böhranı davam edəcək və bundan dolayı digər ərzaq və qeyri ərzaq məhsulların qiymətləri bahalaşacaq. Çünki istənilən istehsal məhsulun maya dəyərində ən azı 30/40 faiz enerji daşıyıcıların payı vardır. Bəzən bu qiymət 40/60 faizə çatır.

Dünyada gedən bahalaşma tendensiyasının qarşısını almaq üçün Azərbaycan hökuməti nə edə bilər? İlk növbədə onu qeyd eləyim ki, bəzi məhsulların idxalından əlavə dəyər vergisi aradan qaldırılmışdır. Bu tədbirlər ona görə həyata keçirilir ki, idxal məhsulun maya dəyəri aşağı düşsün və nəticədə bazarda qiymətlər sabitləşsin. Lakin Azərbaycanda istehsal sahələrinin və idxalın əsas hissəsi inhisardadır. Şirkətlər, istehsalçılar arasında rəqabət olmadığına görə dövlət məhsullarının maya dəyərinin aşağı salması üçün gördüyü tədbirlər bazara təsir eləmir.

Bundan əlavə Azərbaycan dövləti həm də məhsul bolluğu yaranması istiqamətində addımlar atır, subsidiyalar verir. Bu ildən həm də ərzaq subsidiyaları da verəcək. Əhaliyə müxtəlif subsidiyalar verilir ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar stimullaşdırılsın və məhsul artırılmasına maraqları çoxalsın. Azərbaycan öz daxili istehsalını dirçəltməklə dünya bazarındakı vəziyyətin daxili bazara təsir edərək qiymət bahalaşmasının qarşısını ala bilər. Lakin fermerlərin bol məhsul istehsalı üçün onların stimullaşdırılması üsullarından olan subsidiya verilməsində bir qədər çatışmazlıqlar var. Onların əsası iki istiqamətdir. Verilən subsidiyaların yalnız 25 faizinin nağdlaşdırılması, 75 faizinin isə məcburi qaydada gübrə, toxum, zərərvericilərə qarşı mübarizə preparatları və s. alınması nəzərdə tutulmuşdur. Bu vasitələri də kənd təsərrüfatı nazirliyinin idarə etdiyi şirkətlər gətirir, fermerlər mütləq onlardan almalıdır, başqa yerdən ala bilmirlər. Fermerlik təmin eləyən şirkətlər arxayın olur ki, onların müştəriləri vardır.



Həm də fermerlərə verilən subsidiyaların qiymətinə yenidən baxılmalıdır. Hansı sahəyə subsidiya verilirsə Kənd Təsərrüfatının Nazirliyin mütəxəssisləri ora gedib məhsul götürənə qədər xərclərini hesablamalıdır. Xərclərlə gəlirləri qarşılaşdırmalıdır və onlar arasında nağd müəyyən edildikdən sonra fermerin ala biləcəyi vəsaiti nəzərə alınmaqla bir hektara verilən subsidyanın həcmi müəyyən edilməlidir.

"Dünya bazarında qiymət artımı bir sıra ciddi fundamental iqtisadi problemlərlə bağlıdır. Qiymət artımı prosesi kəskinləşib, payız aylarına doğru enerji bazarındakı qıtlığın və iqtisadi qeyri tarazlıqların istehsalla bağlı bir sıra ölkələrdə mövcudluğu eyni zamanda münaqişələrin, sanksiyaların siyasətin davam etməsi şübhəsiz ki, iqtisadi durumu bir qədər də gərginləşdirəcək və dünyadakı qiymət artımı daha da təhlükəli hal alacaq". Bu sözləri Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisadçı Elşad Məmmədov deyib.

Biz artıq görürük ki, həm istehsal sferasında daşınmalardan nəqliyyat logistikadakı çətinliklərlə bağlı sanksiyalar siyasəti ilə bağlı problemlər dərinləşməkdədir. Və ona görə də biz şübhəsiz ki, infilyasiyanın sürətlənəcəyini bundan sonra da, proqnozlaşdıra bilərik. Proqnozlar bundan ibarətdir ki, qiymət artımı davam edəcək və idxaldan asılı ölkələr buna görə də sosial iqtisadi və siyasi problemlərlə üz-üzə qalacaq. Azərbaycanda ölkə rəhbərinin tapşırığı əsasında və ölkə rəhbərinin nümayiş etdirdiyi yanaşma əsasında idxaldan asılılığın azaldılması siyasəti elan olunub, bu istiqamətdə müəyyən işlər görülür. Əgər idxaldan asıllılıq yüksək səviyyədədirsə faktiki olaraq dünya bazarındakı infilyasiyanı həmin ölkə öz daxili bazarına idxal etmiş olur.

**İqtisadçı Toğrul Vəliyevin** sözlərinə görə isə ümumi trend ciddi şəkildə artım başlanandan sonra hazırda qiymətlər bəzi məhsullarda aşağı düşməsindən ibarətdir. Misal üçün neftin qiyməti 100 dollar civarındadır və rekordları qırmır, eyni zamanda ərzaq məhsulların qida və kənd təsərrüfat təşkilatların məlumatına görə keçən ilə nisbətən bu il qiymətlər hələ də yüksək olaraq qalır. Artıq bir sıra ölkələr qəbul edirlər ki, hazırda yüksək infilyasiyanı yaşayırıq və inkişaf etmiş ölkələr bunu qəbul etdiyindən biz də məcbur olaraq qəbul etməliyik. Qarşıda təxmin edə bilərik ki, ərzaq üzrə infilyasiya artımı 11 faiz təşkil edir. Bu isə ciddi bir rəqəmdir. Xüsusilə idxaldan asılı olan bir ölkə kimi Azərbaycan üçün bu proses çox ciddi təsir edir.



Nəzərə almaq lazımdır ki, qiymətlər yaxın müddət ərzində düşməyəcəkdir. Sadəcə indiki şəraitə uyğunlaşmalıyıq. Dövlətin atdığı addımlara gəldikdə bir çox hallarda formal xarakter daşıyır. Bu proseslər Azərbaycan xalqından da ciddi şəkildə asılıdır. Ola bilər bir çox kənd təsərrüfatı məhsulları ilə özümüzü idarə edə bilirik. Ümumi trend ondan ibarətdir ki, hökümət heç bir halda cüzi olaraq da rüsumları azaltmaq niyyətində deyil. İndiki halda ən effektiv üsul o ola bilərdi ki, hansı ki Azərbaycan bu məhsul üzrə idxaldan ciddi şəkildə asılıdır. Məhsulun ƏDV-si ləğv edilməlidir və ya gömrük rüsumu siyasətini dəyişdirməlidir. Əlbəttə ki bu cəhətdən Avropa ilə münasibətlərdə bir çox inteqrasiya məsələləri də həll etmiş olacaqdır. Qiymət artımı daha çox sosial fəsadlara gətirir. Bu yönümdə qiymətlər kəskin şəkildə artır. Dövlət bu səmtdə tədbirlər görmək imkanına da malikdir. İri həcmli investisiyalar, kreditləşmə siyasəti də öz payını göstərə bilər, amma təəssüflər olsun ki, bu istiqamətdə bizdə daha çox tikinti sektoru başa düşülür. Əsas məsələlər isə bir çox hallarda kənarda qalır.

***Havar Şəfiyeva***

ARXIV SƏS

ANALİTİK + AKTUAL



# Bakı və Moskva, eləcə də Brüssel gözləmə mövqeyindədirlər...

*Vladimir Putinin İlham Əliyevə telefon zəngi etməsi arxasında hansı məqamlar dayanır?*

**Uzun pauzadan sonra Azərbaycan və Rusiya dövlət başçılarının növbəti telefon danışıqları olub. Və məhz Rusiya tərəfinin Azərbaycana telefon zəngi etməsi daha bir diqqət çəkən məqama təsadüf edib - Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın qanunsuz olaraq Qarabağa səfər etməsinə...**

Onu da qeyd edək ki, qanunsuz səfərdən dərhal sonra Azərbaycan XİN bəyanat yaydı və bu kimi addımların təkrarlanacağı halda bütün məsuliyyətin məhz Ermənistanın üzərinə düşdüyünə eyham vurdu. Yəni rəsmi Bakı hər an bu kimi səfərlərin qarşısını almaq üçün sərt və qəti addımlar ata bilər. Bəyanatda bildirilir: "2 sentyabr 2022-ci il tarixdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər etməsi Ermənistan tərəfinin növbəti təxribatıdır və iki dövlət arasında münasibətlərin normallaşması cəhdlərinə xələl gətirir."

Nazirliyin bəyanatında həm də vurğulanır ki, bu səfərin iki ölkə liderlərinin Brüsseldəki növbəti görüşündən dərhal sonraya təsadüf etməsi İrəvanın normallaşma prosesində səmimi olmadığını nümayiş etdirir.

"Bu qanunsuz səfər, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığı, suverenlik və dövlət sərhədləri prinsiplərini qəbul etdiyinə dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir. Bu, həmçinin rəsmi İrəvan tərəfindən beynəlxalq vasitəçilərin səylərinə hörmətsizlikdir", deyə qeyd edilən bəyanatda

Azərbaycan XİN Ermənistan rəsmisinin bu addımını sərt şəkildə qınayıb və Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünə qarşı atılan hər hansı addımların cavablandırılacağını bildirib.

Məhz bu məqamda, daha dəqiq desək, RF-nın dövlət başçısı Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi etməsi faktında diqqət çəkən amillər bunlardır:

- Zəng Rusiya tərəfininin təşəbbüsü ilə reallaşdırılıb. Əgər belə olmasa idi relizdə həmin an vurğulanardı.

- "Dağlıq Qarabağla" bağlı heç bir fikir söylənilməyib və həmin ifadə Cənubi Qafqaz adı ilə əvəzlənib, habelə üçtərəfli bəyanatın realizə olunması (Ermənistan tərəfindən) vacibliyi vurğulanıb.

- Və telefon zəngi Ermənistan Təhlükəsizlik Şurasının sədrinin Azərbaycanda müvəqqəti yerləşmiş Rusiya sülhməramlı kontingentinin məsul olduqları ərazilərə qanunsuz səfərindən sonra baş tutdu. Artıq Rusiya da anlayır ki, 3 avqustdan sonra ("Qisas" əməliyyatı) Azərbaycan Silahlı Qüvvələri hər an Qarabağın istənilən yerində, istənilən anda və istənilən nişanı hədəfə ala bilər. Moskva isə çox ehtimal ki, yeni eskalasiyaların baş verəməməsi üçün Bakıdan ricalarda bulunur.

- Fakt həm də budur ki, Ermənistan rəhbərliyi Brüsselin danışıqlar sahəsində fiaskoya uğrayıb. Belə ki, Ermənistanın müzakirə predmeti olaraq danışıqlar prosesində irəli sürdüyü cəhdləri nə Moskva nə də Brüssel sahələrində qəbul edilmir.

Ermənistan XİN-i isə narazı cəmiyyət arasında vəziyyətdən çıxmaq üçün Azərbaycan Prezidentinin sülh müqaviləsinin yaxın aylarda imzalanacağı ilə bağlı bəyanatına münasibətini açıqlayıb. Lakin guya Bakının İrəvana qarşı "növbəti təxribat" hazırladığını da iddia olaraq irəli sürüb ki, son anda əlin də hər hansı "rıçaq" olsun. Halbuki, təxribatı açıq-aydın İrəvan törədir və maraqlıdır ki, Ermənistan rəhbərliyi bir daha erməni hərbçilərini ölüm təhlükəsinə atır, habelə Qarabağ ermənilərini də təhlükəli vəziyyətə doğru sürükləmiş olur.

Beləliklə, Bakı ya Qarabağda (Qərbi Zəngəzur da daxil olmaqla) Ermənistanı üzərinə düşən öhdəlikləri yerinə yetirməyə məcbur edəcək, ya da diplomatik təzyiqlərini artırmaqla, hücum diplomatiyasını davam etdirməklə, eləcə də konkrrt danışıqlar vasitəsi ilə məqsədlərə nail olacaq.

- Bütün bunlardan sonra isə Armen Qriqoryanın qanunsuz səfərini şəxsi, yaxud fərdi səfər etdiyini dilə gətirməsi, bu vasitə ilə özünü Bakı qarşısında doğrultmağa çalışması, habelə Nikol Paşinyanın ilin sonuna qədər sülh razılaşması ilə bağlı razılıqların əldə olunacağı ətrafında bəyanat verməsi Azərbaycanın sərt, anında və qətiyyətli davranışlarının nəticəsi kimi qiymətləndirilə bilər.

Rusiyanın isə beynəlxalq aləmdə mövqelərini itirməməsi üçün hələ ki, müəyyən şansları qalmaqdadır. Xüsusilə, regiondakı təşəbbüslərini gücləndirməklə Moskva Qarabağın demilitarizasiyası ilə bağlı əməli fəaliyyətə keçə bilər. Əks halda, Qarabağdakı qanunsuz erməni silahlılarının, habelə ağır və zirehli texnikalarının və s. qurğularının qalması Ermənistan rəhbərliyinin həm Azərbaycan Silahlı Qüvvələrinə, həm də Rusiya sülhməramlı kontingentinə qarşı təxribat törətmək imkanlarını reallaşdıra bilər. Və ya həmin fakt həm Moskvanın RSK-ya qarşı, həm də Bakının SQ-ə qarşı təxribatlardan ehtiyat etməsi və qarşısının antiterror əməliyyatı ilə alınması üçün qərar verməlirimə zəmin yarada bilər.

Görünür, bu baxımdan, son bir neçə gündür ki, Ermənistan KİV-lərində və sosial şəbəkələrində ağır texnikaların Qarabağdan çıxarılması prosesinin başlanacağı barədə fikirlər səslənməyə başlayıb. Bakı və Moskva, eləcə də Brüssel gözləmə mövqeyindədirlər...

***Rövşən RƏSULOV***

## Logistik şirkətlər ölkəmizlə bağlı hansı lahiyələri planlaşdırır?

*İqtisadçı-ekspert açıqladı*





**"Son zamanlar Azərbaycanda nəqliyyat və loqistikanın inkişafı hiss olunur ki, bu da ölkə üzərindən daşınan yüklərin həcmində artımların olması ilə əlaqəlidir". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib.**

İqtisadçı-ekspertin sözlərinə görə, bu ilin ilk yarısında Azərbaycan üzərində daşınan beynəlxalq yüklərin həcmində 30 faiz artım müşahidə olunub: "Praktik olaraq artım davam edir. Xüsusən də son düzənin formalaşması və nəticədə Azərbaycan üzərində daşınan yüklərin həcmində artım açıq şəkildə görünür. Yalnız Avropa və Asiyada deyil, həmçinin region üzərindən yüklərini daşıyan logistik xidmətlər göstərən və digər qitələri təmsil edən şirkətlərin də Azərbaycan üzərindən beynəxalq yük daşımasına marağı artıb.

Nəzərə alsaq ki, Azərbaycan üçün beynəlxalq yük daşımaların həcminin artırılması qeyri-neft sektorunda valyutaların daxil olması baxımından vacibdir. Bunun üçün də Azərbaycan regionun logistik və nəqliyyat məkanına çevrilməkdədi. Təbii ki, bu da Azərbaycanın dövlət gəlirlərinin artmasına səbəb olacaq".

***Banuçiçək Hüseynli***

## "Qıtlıq qapıdadır"...

*Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibinin humanitar məsələlər üzrə köməkçisi və fövqəladə yardım koordinatoru Martin Qriffits Şərqi Afrika ölkəsi Somalidəki qida probleminə diqqət çəkərək deyib...*



2022-ci ilin sonuna qədər Somalinin bir sıra bölgələrində aclıq ola bilər. SİA-nın əldə etdiyi məlumata görə, Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibinin humanitar məsələlər üzrə köməkçisi və fövqəladə yardım koordinatoru Martin Qriffits Şərqi Afrika ölkəsi Somalidəki qida probleminə diqqət çəkərək deyib: "Bu ilin sonuna qədər Somalinin bəzi bölgələrində aclıq gözlənilir.

Qida problemi və qıtlıq, xüsusilə ölkənin cənubundakı Körfəz bölgəsinə mənfi təsir edəcək. Fevralın 24-dən Ukrayna-Rusiya müharibəsinin başlaması ərzaq problemi və qıtlığı daha da artırıb".

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Şöbəsinin (FAO) məlumatına görə, Somalinin 80 faizi şiddətli quraqlıqla mübarizə aparır.

Somali hökuməti artan quraqlıq səbəbindən 2021-ci il noyabrın 23-də ölkə daxilində fövqəladə vəziyyət elan edib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Somalidəki humanitar böhranla bağlı beynəlxalq ictimaiyyəti təcili yardıma çağırıb.

# “Azərbaycan öz gücü hesabına torpaqlarımızı minalardan təmizləyir”

**“Torpaqlarımız azad edildiyi gündən minlanmış ərazilərdə təmizləm işləri davan edir. Bunun üçün Azərbaycan dövlətinin Prezidenti İlham Əliyevin sərəncamı ilə Mina Agentliyi yaradılıb və agentliyin fəaliyyəti üçün bütün maddi-texniki baza təmin edilib”. Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib.**




Onun szölərinə görə, eyni zamanda Müdafiə Nazirliyinin iki hərbi hissəsi yaradılıb: ”Qardaş Türkiyə dövləti kömək edir. İsraildən və Türkiyədən müasir texnologiyalar gətirilir. Avropa Birliyi simvolik məbləğ olsa da maddi yardım edib. Azərbaycan dövləti bütün vasitələrdən istifadə edir ki, qısa bir zamanda ərazi minalardan təmizlənsin və ərazini minakardan təmizləyərək paralel işlər də həyata keçirilir. Yollar çəkilir, dəmir yolları qurulur, hava limanları tikilir, kəndlər bərpa edilir, Ağdam şəhərindən infrastruktur işləri həyata keçirilir. Bir çox ərazilərdə hərbi hissələrin tikintisi həyata keçirilir. Qarabağ böyük tikinti meydançasını xatırladır və çox böyük işlər görülür. Xeyli ərazilər minalardan təmizlənib, amma bu xeyli zaman istəyir. Ermənistan tərəfinin verdiyi mina xəritələri reallıqda öz əksini tapmır. Azərbaycan dövləti hər cür səyi göstərir ki, bu məsələdə itkilər minimum olsun. Təəssüf olsun ki, dünya birliyi işğal faktına susduğu kimi mina məsələsində də ortaya qoymayıb. Nə əldə edibsə bunu Azərbaycan öz gücünə əldə edib. Əraziləri minalardan təmizləyir və orada böyük quruculuq işləri görür. Yaxın zamanlarda ərazilərimiz tamamilə minalardan təmizlənəcək və bu məsələ birbaşa dövkət başçımızın nəzarəti altındadır. Minalardan təmizlənmiş ərazilərimiz cənnət məkanına çevriləcəkdir”.

***Abutel İlhamqızı***

# “Ermənistan hakimiyyəti hələ də terrorizmlə məşğuldur”

**“Laçın şəhəri Azərbaycana təhvil verildikdən sonra erməni xislətinin bariz nümunəsi də ortaya çıxdı. Laçında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən 1318 ədəd piyada əleyhinə minalar aşkarlanıb. Təbii ki, bu hələ ilkin mərhələnin statistik göstəricisidir. Bu gün dövlətimiz beynəlxalq səviyyədə terrorizmlə mübarizə aparır. Ermənistanın buradakı məkrli məqsədi Azərbaycan tərəfində daha çox insanın itkisinə nail olmaqdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.**






Onun sözlərinə görə, biz regionda sülh, sabitlik naminə mübarizə apardığımız təqdirdə Ermənistan hakimiyyəti hələ də terrorizmlə məşğuldur: ”Çünki Laçında nəinki piyada əleyhinə minalar, həmçinin tank əleyhinə mina və çox sayda partlamamış silahsursat aşkarlanıb. Araşdırmaların nəticəsində bir daha məlum olur ki, Ermənistan hakimiyyəti qətiyyən sülh lehinə deyil, 2020-ci ilin noyabr bəyənnaməsinə əsasən hər iki tərəf hərbi fəaliyyəti dayandırmalı idi. Lakin aşkar edilən minalar 2021-ci il Ermənistan istehsalı olduğundan bir daha Ermənistanın nəinki 2020-ci il üçtərəfli bəyannaməni, hətta beynəlxalq konvensiyaları da pozduğu aşkardır”.

Deputat sözlərinə belə davam edib: ”Dünyada minalardan çirklənən ölkələr içərisində Azərbaycan artıq ön sıralarda dayanır desək yanılmarıq. Bunun da səbəbi Ermənistanın minalama siyasətidir. Ermənistan bu siyasətini davam etdirdiyi müddətdə həm Azərbaycan vətəndaşlarının zərər görməsinə, həm də sülh və barışıq səylərinə ciddi xələl gətirir. 10 noyabr bəyannaməsindən sonra Azərbaycanda 232 nəfər mina qurbanı olub. Təəssüf ki, 40 nəfər vətəndaşımız həyatını itirib, 192 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıblar. Ermənistanın minalama siyasətinin qurbanlarının əksəriyyəti isə mülki şəxslərdir.

Məsələylə bağlı ATƏT, Avropa Şurası, Aİ, BMT kimi beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb. Həmin təşkilatlardan öz konvensiya və prinsiplərə sadiqlik nümayiş etdirərək, Ermənistanın bu mənfur əməllərini ifşa edən sənədlər qəbul etməsini, həmçinin Ermənistanı Azərbaycan torpaqlarından çıxarılmağa məcbur edilməsini gözləyirik. Əgər beynəlxalq prinsip və hüquqların işlək olması etibarının qorunub saxlanılması həmin qurumlar üçün əhəmiyyətlidirsə, təcili şəkildə Ermənistanın əraziləri mina çirkləndirməsindən dayandırılmalı, Azərbaycan torpaqlarında törətdikləri terrorizmə görə layiqli cavab verilməlidir. Əks halda dünya ölkələri və xalqları üçün kağız üzərində olan bu konvensiyaların heç bir etibarı olmayacaq və günügündən terrorizm, özbaşınalıq demokratik prinsiplərin tapdalanması daha da artacaq. Bu isə dünya üçün heç də yaxşı nəticələr verməyəcək”.

***Ayşən Vəli***



**Vəli Vəliyev**

# Ermənistan: məğlubiyyətin başlanğıcı

**“Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu, realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib”, - Bu barədə Azərbaycan prezidenti İlham Əliyev İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində deyib.**

Bu, Ermənistan rəhbərliyinin şərtləri qəbul etməyə məcbur olacağına əmin olan bir adamın sözləri idi. Bəli, İlham Əliyev bu açıqlamanı çox incə bir şəkildə söylədi. Lakin dövlətimizin başçısının İtaliya mətbuatı vasitəsilə verdiyi açıqlamanın mahiyyəti hər bir erməni üçün narahatlıq yaratdı. Reallıq budur ki, Ermənistan məğlub, həm də zəif ölkədir, işğalçıdır və haqlı tərəf deyil.

Ermənistanda özünü siyasətçi hesab edənlər də, hakimiyyəti təmsil edənlər də reallığı yozmaqla, məğlubiyyətə rəng verməklə məşğuldurlar. Azərbaycanın qələbəsini həzm edə bilmirlər. Kimsənin qınaq obyekti olmamaq, daha doğrusu indiyədək bütün dünyaya ıxrac etdikləri yenilməzlik, məğlubedilməzlik mifini səndərmamaq üçün guya, Azərbaycanın bu müharibədə iri dövlətlərin imkanlarından istifadə edərək qələbə qazandığını kütləyə sırımağa çalışırlar.

Ermənistanın ideoloqları əvvəlcə bütün günahları Nikolun üzərinə atmaqla məğlubiyyət damğasını xalqın, ordunun üzərindən götürməyə cəhd etdilər. Amma ”üzürü günahından böyük” olduğunu anlayıb 44 günlük müharibədə ermənilərin düşdüyü miskin durumun səbəb və nəticələrini, günahını Azərbaycanın guya işğalçı siyasət yürütməsi üzərində kökləməyə çalışdılar. İndiki reallıq budur ki, Ermənistan 30 il ərzində Azərbaycanın müxtəlif tribunalardan rəsmi İrəvan haqqında səsləndirdiyi fikirləri sözbəsöz təkrarlayır. Bizi işğalçı adlandırır, ərazilərdən geri çəkilməyimizi tələb edir, ”qaçqın və köçkünlər”in öz ”doğma yurdlarına” qayıtmalarını beynəlxalq təşkilatlardan tələb edir, hətta beynəlxalq norma və prinsiplərə rəsmi Bakının əməl etməsini tələb edir. Bir cümlə ilə Ermənistanın iddialarına cavab vermək olar, sizin üzünüz əcdadınız olan meymunların ayıb yeri kimi qırmızıdır, nə dünya qanunlarına, nə də cəngəllik qanunlarına tabe deyilsiniz. Çünki, 30 il ərzində Azərbaycan torpaqlarından çəkilmənizi, qaçqın və köçkünlərin öz yurdlarına qayıtmasına şərait yaratmanızı və həm də bütün bu proseslərin qansız-qadasız baş verməsini istədi, əgər bu olmazsa müharibənin olacağı xəbərdarlığını da etdi. Amma siz qanmadınız, erməni tərəfinizə saldınız...

1990-cı illərin əvvəllərində Azərbaycanı məğlub edərək ermənilər bu qələbəni uzun bir tarixin başlanğıcı deyil, sonu hesab etdilər. Özlərini əmin etdilər ki, bu qələbə əbədidir, Azərbaycan bununla barışıb və heç vaxt qisas haqqında düşünəcək qədər güclü ola bilməyəcək. Ermənistan və ermənilər həqiqəti eşitməkdən və anlamaqdan imtina edərək reallıqlara deyil, illüziyalara diqqət yetirdilər. Azərbaycan isə öz planlarını gizlətmədi. Qələbəyə hazırlaşdı, ordusunu gücləndirdi, iqtisadiyyatını inkişaf etdirdi, bir sözlə azadetmə müharibəsinə tam ciddi şəkildə hazırlaşdı. Bu gün ermənilər bir həqiqəti də etiraf edirlər ki, ”Heydər Əliyevə ”Əsrin müqaviləsi” ni imzalamağa, onu reallaşdırmağa icazə verəndə artıq uduzmuşduq”. Bəli Ermənistanın , o cümlədən dünya ermənilərinin etmək istədikləri, lakin güclərinin yetmədiyi bir faktor - Heydər Əliyev reallığı idi. 1988-1993-cü illərdə, Azərbaycan hakimiyyətində səriştəsizlərin, hakimiyyət, idarəetmə, dövlətçilik ənənələrinə yad olanların zamanında torpaqlarımızı işğal edənlər düşünürdülər ki, onlar üçün ən böyük manеə - Heydər Əliyevdir. Və onu da yəqin etmişdilər ki, Ulu Öndər hakimiyyətə bir daha gəlməyəcək. Amma yanıldılar, həm də çox yanıldılar

Ermənistanın bütün hökmdarları özlərini elə aparırdılar ki, sanki belə aydın və aşkar təhlükə yox idi. Nəticədə ermənilər hakimiyyəti Robert Köçəryana verən Ter-Petrosyanı əldə etdi və Ermənistana və işğal altındakı Qarabağa pul inəyi kimi baxan klanın uzun müddət idarəçiliyinə imkan verdi. Əslində, ermənilləri inandırdılar ki, ordu güclü və yenilməzdir, dünya ermənilərin tərəfindədir, Azərbaycan isə zəif və qorxaqdır.

Bəli, yalan danışdılar. Amma ermənilər onlara inandı. Bu yalana inanmaq ermənilər üçün xoş, sakit və sərfəli idi. Nikol və onun komandasının dediklərinə inandıqları kimi... Ermənilər özlərini əmin etdilər ki, Ermənistanda demokratiyanın qələbəsi bütün demokratik dünyadan dəstəyin, o cümlədən Qarabağ üçün təhlükəsizlik təminatıdır. Bu baş vermədi. Qərb artıq düzgün mövqeyini nümayiş etdirir. Guya ”qırmızı xətti” keçən Azərbaycanı cəzalandırmağı yox, onunla sərfəli iş aparmağı üstün tutdu. Rusiya da eyni şeyi etdi. Baxmayaraq ki, Ermənistanın qarşısında konkret müttəfiq öhdəlikləri var idi.

# Universitetə yeni qəbul olmuş abituriyentlərin TƏƏSSÜRATLARI

**Dövlət İmtahan Mərkəzi Azərbaycanın ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elan edib. İxtisas seçimi bütün ixtisas qrupları üzrə 2022-ci il avqustun 28-dək internet vasitəsilə aparılıb. Avqustun 31-i isə nəticələr elan olunub.**

Bu il 1 nəfər beynəlxalq fənn olimpiadasının, 46 nəfər respublika fənn olimpiadasının, 83 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 22 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (IB Diploma Programme) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.

Bundan əlavə, 192 abituriyent SAT imtahanının nəticələrinə əsasən, 190 abituriyent isə ADA məktəbinin məzunu kimi ADA Universitetinə qəbul olunub. Həmçinin, I ixtisas qrupu üzrə 135 abituriyent Azərbaycan-Fransız Universitetinə (UFAZ), 116 abituriyent Koreya Respublikasının İNHA Universitetinin mühəndislik ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq İkili Diplom Proqramı çərçivəsində Bakı Mühəndislik Universitetinə, IV ixtisas qrupu üzrə 125 abituriyent İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, 65 abituriyent (I-IV ixtisas qrupları üzrə) M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul olunub.

SİA bu il universitetə qəbul olmuş abituriyentlər arasında sorğu keçirərək onların təəssüratlarını öyrənib:




**Aysu Abdullayeva:** "653 balla ADNSU Komputer elmləri (tədris ingiliscə) qəbul olmuşam. Hər il yüksək bal toplamış abituriyentləri görmək mənə zövq verir və özümü onların yerində hiss edirdim. Kiçik yaşlarımdan texniki fənnlərə olan marağım mənə 1-ci ixtisas qrupunu seçməyə kömək etdi. 10-cu sinifdən isə sistemli şəkildə dərslərimə çalışaraq imtahan verəcəyim, arzusunda olduğum balı toplayacağım günü gözləyirdim. Ən böyük məqsədim 650 Balı keçmək, tədrisi ingilis dilində olan ixtisasa qəbul olmaq idi. Yuxusuz qaldığım gecələr yorğun olduğum vaxtlar məni gücdən salmadı, əksinə sevincli günlərə az qaldığını hiss etdirdi. Amma buraxılış imtahanlarının nəzərdə tutulduğu vaxtdan daha tez olması, blok imtahanı həyəcan keçirməyimə səbəb oldu. Buna baxmayaraq öhdəsindən gəldim. Bu təkcə mənim yox, eyni zamanda mənimlə eyni əziyyəti çəkən müəllimlərimin, valideynlərimin uğurudur. Növbəti hədəfim isə bakalavr bitirdikdən sonra xaricdə təhsilimi davam etdirməkdir".



**Nuranə Vəlizadə:** "Bu il keçirilən ali məktəblərə qəbul imtahanında Azərbaycan Memarlıq və İnşaat Universitetinin Menecment ixtisasına qəbul oldum.



Nəticələrin elan olunduğu anda yaşadığım sevinc, qürur hissləri neçə illər ərzində çəkilən bütün əziyyətləri unutdurur. Sanki 1 saniyədə bütün əziyyətlərin, yorğunluğun qarşılığını almış olursan. İnsan qarşısına qoyduğu məqsədə çatmaq üçün bəzi çətinliklərə qatlanmalıdır. Bu illər ərzində sadəcə oxumaq deyil, həm də güclü, inamlı, iradəli və səbrli olmaq lazımdır.

Bütün abituriyentlərə ali məktəbə qəbul sevincini, o qürur hisslərini yaşamağı arzu edirəm. Bu yolda yanımda olan ailəm və müəllimlərimə təşəkkür edirəm".

**Xatun Rzabəyli:** "Abşeron rayonu Xırdalan şəhərində yaşayıram və buranın 5 nömrəli tam orta məktəbi bitirmişəm. Yaxın günlərdə Azərbaycan Dillər Universiteti Dil Ədəbiyyat müəllimliyi Alman dili üzrə təhsil alacağam. Bir neçə gün əvvəl artıq tələbə olduğumu öyrəndim. Keçirdiyim hisslər sözlə deyə bilməyəcək qədər gözəl və möhtəşəmdir.



İllərdir mübarizə apardığım bir həyatda artıq ilk uğurumu atmış oldum. Bu ailəmi, yaxın ətrafımı çox qürurlandırdı. İlk başda istədiyim yerə düşə bilməyəcəyimə inanırdım. Amma həyat möcüzələrlə dolu imiş. İllərdir xəyalını qurduğum universitet və ixtisasın pulsuzuna qəbul oldum. Pulsuz təhsil almaq məni daha da qürurlandırdı. Artıq bir neçə həftə sonra mənim həyatımda yeni bir səhifə açılır və çox həyəcanlıyam.Yeni mühit, yeni insanlar və yeni çətinliklər... Bu zaman içində mənə dəstək olan hər kəsə təşəkkür edirəm".

**Nihad Paşayev:** "427 bal ilə Azərbaycan Memarlıq və İnşaat Universitenin İnşaat mühəndisliyi fakültəsinə daxil olmuşam. Çox şükür, 2 illik əziyyətim boşa getmədi. Yuxusuz gecələr, yorğun günlər... Hər biri öz bəhrəsini gördü. Xəyalım inşaat mühəndisi olmağ idi və mən bunu bacardım. Allah hər bir abituriyentə bu gözəl hissi yaşatsın. Amin! Abituriyentlərə tövsiyyəm işinizi plan üzərində qurun. Planla hərəkət etsəniz həm gəzməyə, həm də kefiyyətli dərs oxumağa vaxtınız çatacaq".



**Rəvan Alməmmədli:** "Qazax rayon Dağkəsəmən kəndində yaşayıram. Dərslərim çox yaxşı idi, həmçinin də qiymətlərim. Zəhmətimin bəhrəsini görərək İdman Akademiyasına qəbul olmuşam. Elə uşaqlıqdan bəri də idmanla məşğul olurdum. Əziyyət çəkənlər sonra öz məqsədinə nail olur. Sadəcə, əzmli olmaq və çox çalışmaq lazımdır".



**Rüfət Babayev:** "Universitetə qəbul olmaq çox gözəl hissdir. Düşünürəm ki, hər kəs bu hissi yaşamalıdır. 532 balla Azərbaycan Dövlət Neft və Sənaye Universitetini istəyirdim və elə ora da qəbul oldum. Yəni, insan qarşısına nəysə bir məqsəd qoysa, ona nail olacaq. Sadəcə, əziyyət çəkmək və bunu ürəkdən istəmək lazımdır deyə düşünürəm. Növbəti ildə universitetə hazırlaşan hər kəsə uğurlar arzulayıram".



**Aydan İbrahimli:** "Bu il A.Hüseynzade adına 20 nömrəli məktəb-liseyi bitirib, 2021-2022 ilin məzunu oldum.

2022 ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə 430 balla 1-ci qrup üzrə daxil olmuşam. Böyük bir seçimim var idi. İxtisaslar arasında çox tərəddüd edirdim. Əvvəl "IT"-ə, kompyuter mühəndisliyinə qəbul olmaq istəyirdim. Sonra biraz fikirləşib ADNSU-ya qəbul olmaq istədim. Amma ən sonda energetik mühəndisliyini seçdim və seçimimdən çox razıyam. Əminəm ki, universitetdə məni maraqlı günlər gözləyir".





**Emin Əsgərzadə:** "Universitetə daxil olduğum gün çox həyəcanlandığımı deyə bilərəm. Çünki istədiyim yerə qəbul olub-olmadığımı hələ ki, bilmirdim. Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olduğumu biləndə isə çox sevindim. Çünki istədiyim yer ora idi. Çəkdiyim əziyyətin boşa getməməsi sevindirici haldır.

Onu da qeyd etmək istəyirəm ki, heç bir müəllim yanına getməmişəm".

***Ayşən Vəli***

# Uşaqlara qarşı İŞGƏNCƏLƏR ARTIR: Bəs ÇIXIŞ YOLU nədir?

ARAŞDIRMA

**Bəziləri şiddəti uşağın tərbiyəsində lazımlı vasitə kimi görür. Lakin şiddət günahkarlıq, utanc, özünə nifrət kimi hisslərin uşağın şəxsiyyətinin təməlində yerləşməsinə səbəb olur.**

Uşaqlara etdikləri hər səhvə görə qışqırmaq və danlamaq onların davranışlarını düzəltmək üçün kifayət deyil. Əksinə, davamlı qışqırmaq, danlamaq uşaqlara fiziki, psixoloji və sosial cəhətdən mənfi təsir göstərərək onların inkişafına xələl gətirir.

Övladını döyən valideyn, yaxud şagirdinə şiddət göstərən müəllim müxtəlif mövzuları bəhanə edir. Amma uşağa şiddətlə bağlı



yüzlərlə elmi araşdırma göstərir ki, döyülmə uşaqlara necə davranmaq barədə heç nə öyrətmir, əksinə, onları gələcəkdə şiddətə meylli və travmalı bir fərdə çevirir.

Yüzlərlə elmi araşdırmalar sübut edib ki, döymək, vurmaq, hər hansı cismani cəza tətbiq etmək heç bir fayda vermir və uşaqlara ağır zərər verir.

Araşdırmaların sübut etdiyi nəticələr bunlardır:

* Psixi sağlamlığına zərər verir, özlərinə inamı aşağı, sevilməyən, dəyərsiz, qeyri-adekvat, gücsüz və çarəsiz hiss etmələrinə səbəb olur.

* Bu, daimi fiziki zərər verir və hətta ölümlə nəticələnə bilər.

* Cinayət davranışını artırır.

* Uşaqlarda aqressivliyi artırır.

* Yeniyetmələrdə və böyüklərdə müşahidə edilən zorakı davranışlar ilə uşaqlıqda cismani cəza arasında birbaşa əlaqə aşkar edilmişdir.

* Uşaqlara başqalarını asanlıqla vurmağı öyrədir.

* Ən təhlükəli cinayətkarların uşaqlıq illəri nəzərə alınaraq, onların fiziki cəza aldıqları məlum olub.

* Uşaqların münaqişələri effektiv və humanist şəkildə həll etməyi öyrənməsinə mane olur.

* Döyülmüş uşaqlarda qeyri-adekvat koqnitiv inkişaf müşahidə edilmişdir.

* Məişət zorakılığı ilə güclü əlaqəsi var.

* İnsanların güvən hissini zədələyir.

Cahil və məsuliyyətsiz insanlar uşaq dünyaya gətirməməlidir. Valideynlər də travmalarının fərqində olmalıdır. Günümüzdə övladına güvənməyənlər, onu bağçanın qapısından atıb qaçanlar, mərkəzdəki tərbiyəçilərin savadına, biliyinə yaxud rəftarına deyil, yaşına ilişib qalan valideynlər var.

Bir ana qapıdan içəri girən övladının enerjisini necə duymaya bilər? Necə bilməz ki göndərdiyi yer onun üçün sanki cəhənnəmdir?!

Bəs, bu halların qarşısı necə alınmalıdır? Uşaqlar üçün mərkəzlər necə fəaliyyət göstərməlidir? Hansı tədbirlər görülməlidir? SİA mövzu ilə bağlı bağça direktoru, müəllimi, hüquqşünas, psixoloq və övladını bağçaya yollayan valideynlərin fikirlərini öyrənərək araşdırma aparıb.

**"TuTu" uşaq bağçasının direktoru Vəfa Nəhmədova:** "Ümumiyyətlə, biz bağça direktorları olaraq işçi götürərkən mimiklərə, jestlərə, bədən dilinə və xoşbəxt olub-olmadığına fikir veririk. Müəllimə səbirli, təmkinli, məsuliyyətli olmalıdır. Bundan əlavə, işçi onun üzərində güclü nəzarətin olduğunu hiss etməlidir.



Bu işə sadəcə biznes sahəsi kimi baxılmamalıdır. Uşaqları və işləməyi sevənlər bu sahəni seçməlidirlər.

Uşaqlar bizim gələcəyimizdir. Hər kəs bunu dərk edərək yaşamalı və iş prinsipləri-ni buna uyğun olaraq şəkilləndirməlidir.

"TuTu" uşaq bağçasının devizi "Dünyanın ən gözəl melodiyası uşaq səsidir" dir. Ümid edək ki, bu səslər gülüş, sevinc qışqırıqları və sadəcə şıltaqlıq etmək üçün ağlamaq səsi olsun".

**"Təkamül" Tədris Mərkəzinin müəllimi Şəfəq Rəcəbova:** "Loqopedik mərkəzdə baş verən hadisəyə həm müəllim, həm də valideyn olaraq çox məyus oldum. Ümid edirəm ki, görülən tədbirlərdən sonra bir daha belə hallara rast gəlmərik.

Mən günahı bu mərkəzlərin rəhbərlərində görürəm. Bu məsələdə həssas olmaq lazımdır. Müəllimləri yaxud tərbiyəçiləri işə götürərkən həssas olmaq lazımdır. Uşağa sevgiylə yanaşmalısan. Uşaqlara sevgiylə yanaşırsansa, isdədiyin yaxşı nəticəni də alacaqsan. Həqiqətən də mən uşaqları çox sevir və onları öz övladım kimi görürəm. Ona görə də bizdə hər şey əladır".








**Psixoloq Leyla Əli:** "Baş vermiş hadisəyə görə məsuliyyət daşıyan şəxslər qanun qarşısında cavab verəcəklər. Uşaqlara, xüsusilə xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı şiddət yol verilməzdir. Çünki bu uşaqlar həyatlarını müəyyən fiziki məhdudiyyətlərlə yaşayırlar. Özünü ifadə bacarıqları sağlam inkişafda olan uşaqlara nisbətən məhduddur. Bu nöqteyi-nəzərdən onlara xüsusi diqqət, qayğı və sevgi göstərilməlidir, nəinki şiddət.



Yaranmış situasiyanın bir də yaşanma ehtimalının qarşısını almaq üçün psixoloqlar işə qəbul olunmamışdan öncə mütləq psixoloji müayinədən keçirilməlidir. Psixoloq vəziyyəti normalara uyğun olan heç bir şəxs uşaqlara qarşı bu vəhşiliyi edə bilməz. Onlar heç kimin anlamadığı insanları anlamalıdırlar, nəinki xüsusi qayğıya ehtiyacı olan birinə qarşı amansız olmaq".

**Vəkil Turan Abdullazadə:** "Qeyd etdiyiniz hadisədə inzibati xəta tərkibinin əlamətləri müşahidə olunur. İnzibati xətanın yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi inzibati tənbeh tətbiq edilərkən məsuliyyəti ağırlaşdıran hal hesab edilir.

Ümumiyyətlə, loqopedik xidmət məktəbəqədər və ümumtəhsil müəssisələri nəzdində şifahi və yazılı nitqi qüsurlu olan uşaqlara kömək məqsədilə təşkil edilir. Zəif eşidən, zəif görən, əqli və fiziki inkişafdan geri qalan, normal intellektli nitqi qüsurlu uşaqlar üçün məktəbəqədər təhsil müəssisələrində, zəif eşidən və sonradan karlaşmış, kor və zəif görən, əqli və fiziki inkişafdan geri qalan, dayaq-hərəkət aparatının inkişafı pozulan nitqi qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələrində loqopedik kabinetlər təşkil edilir.



Loqopedik mərkəz (kabinet) müvafiq tədris-maddi baza və ixtisaslı kadrlarla təminat olduğu halda Təhsil Nazirliyi ilə razılaşdırılaraq yerli təhsili idarəetmə orqanları tərəfindən açılır.

Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinin" 5.2-ci maddəsinə əsasən, məktəbəqədər təhsil müəssisəsində təhsil prosesi təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulur və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verilmir.

Həmin nizamnaməyə əsasən, təhsilalanların şəxsiyyətin alçaldılmasına, mənəvi və psixoloji duruma və sağlamlığa zərər vuran hərəkətlərin bütün formalarından, fiziki və psixoloji zorakılıq hallarından müdafiə olunmaq hüququ var.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsinə əsasən isə döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə - üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Eyni zamanda həmin məcəllənin 181.0.2-ci maddəsinə əsasən, təhsil müəssisəsində təhsilalana qarşı cinayət əlamətləri olmayan psixoloji zorakılığa yol verilməsinə görə - fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir".

İnzibati Xətalar Məcəlləsinin 189.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən üzrlü səbəblər olmadan yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə - xəbərdarlıq edilir və ya qırx manatdan altmış manatadək məbləğdə cərimə edilir.



Qanunvericiliyin müddəalarına əsasən, təhsilverənin və yetkinlik yaşına çatmayanlara sosial xidmət göstərən şəxslərin onları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq vəzifəsi var.

Bundan əlavə uşağa qarşı fiziki və psixoloji şiddət göstərmiş şəxs loqopedik mərkəzin rəhbərliyi tərəfindən əmək və xidməti vəzifələrini kobud şəkildə pozduğu üçün işdən kənarlaşdırıla bilər".

**5 yaşlı Şamxəlil Budaqovun anası Aytən Məmmədova:** "Mən öz övladımı yolladığım bağçada fiziki şiddətə rast gəlməmişəm. Amma qışqırdıqlarının şahidi oluram. Düşünürəm ki, uşağa şiddət göstərmək düzgün tərbiyə metodu deyil. Belə hallarla rastlaşanlara həmin qurumu şikayət etmələrini tövsiyə edirəm.

Əgər uşaq hər hansı bir səhv etsə belə, onu anlayıb, dinləmək və düzgün olan variantı ona başa salmaq lazımdır. Bağça həyati uşağa ana qayğısı ilə yanaşmalıdır".



**5 yaşlı Fidan Cabbarlının anası Aynur Cabbarova:** "Övladımı evimizin yaxınlığında olan özəl bağçaya göndərirəm. Adı "Təkamül" Tədris Mərkəzidir. Bura çox yaxşıdır. Əvvəl qızım ora bağça üçün gedirdi, indi isə məktəbəqədər təhsil üçün yollayıram. Müəllimələrindən də razıyam.

Loqopedik mərkəzdə uşaqlara qarşı olan şiddətə çox üzülmüşəm. Onlar savadsız və pulla, tanışlıqla işə düzələnlərdir. Onlar müəllim olmağa layiq deyillər.

Mən onlara insan deməyə utanıram. Bu halların qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir. Onlar ciddi sınaq müddətindən keçməli, daha sonra işə qəbul edilməlidir".



**4 yaşlı Aybəniz İsmayılovanın anası Rüfanə İsmayılova:** "Mən o şiddət videolarına baxa bilmədim. Həyatımda heç vaxt və heç kimə qarğış etməmişəm. Amma o videonun altına bütün ürək sözlərimi yazdım. Çünki görüntülər məni çox pis sarsıtdı.

Burada günah ilk növbədə valideyndədir. Çünki valideyn uşağının bədənindəki izləri necə görməyə bilər?! Qızım bağçaya gedib



gəldikdən sonra mən onun bütün bədənini yoxlayıram.

Övladım əvvəlki qrupundan 1-2 dəfə şikayət etdi və oradan çıxardım. Yəni, valideyn övladının narahatlığını duymalıdır. Bizim bağça Xırdalan ərazisində olan dövlət bağçalarının ən yaxşısıdır. Bura uşağı yollamaq da çox çətindir. Çünki qəbul üçün müəyyən mərhələlər mövcuddur. Bağça qızımı əminliklə yollayıram və nigaran qalmıram. Direktoru çox diqqətcildir və güclü nəzarət var. Burada müəllim hökmranlığı yoxdur. Direktor bütün otaqları kameradan izləyir. Bu bağçada ondan gizlin heç bir iş görülə bilməz. Bütün müəllimləri də sanki xüsusilə seçilib.

Bizim bağçada uşaqlara xüsusi forma da geyindirirlər. Nədənsə narazı qalsam, etirazımı bildirərəm. Qızım baxıcısına "Nənə" deyir". Bu da burada olan sevgi və səmimilikdən irəli gəlir. Heç bir şey uşağa biganə yanaşmağa bəhanə ola bilməz. Valideyn vaxtının böyük qismini uşaqlarına ayırmalıdır".

***Ayşən Vəli***

## Valideyn və övlad arasındakı problemlərin səbəbi nədir?

### *PSİXOLOQ AÇIQLADI*

"Müasir dünyada uşaqlar ən çox psixoloji təyziqdən əziyyət çəkir. Belə ki, valideynlər daha çox iş və özəl həyatlarına yönəlik olduqları üçün uşaqların maraq dünyasından çox uzaq düşürlər. Məsələn onların dinlədiyi musiqi, baxdığı filmlər, etdikləri zarafatlar valideynlərin zövqləri ilə üst-üstə düşmədiyi üçün aralarında anlaşılmazlıq yaranır". Bi fikirləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova bildirib.



Onun sözlərinə görə, valideynlər uşaqların bu tip həyat tərzindən uzaq olduğu üçün anlayış göstərə bilmirlər: "Bu da zamanla yersiz təzyiqlərə, müdaxilələrə, məsləhətlərə gətirir. Bu da təbii ki, məsafələr səbəb olur.

Gənclərlə ünsiyyət zamanı elə ən çox bu problemlər üzə çıxır ki, məni anlamırlar, eşitmirlər. Gənclər bunu analiz edə bilmirlər, valideynlərinə qarşı nifrət hissi yaranır və onları eşitməməyə, öz bildikləri kimi davranmağa başlayırlar. Valideynlər anlamalıdır ki, ortada bir yaş fərqi var, nəsil fərqi var. Yəni gənclərin bun gün yaşadığı, bəyəndiyi şeyləri qəbul etməsələr də yaxın olub anlayış göstərməyə çalışmalıdırlar. Bu dəqişməz faktdır. İllərdir ki, nəsillər arasında dünya görüşü, zövq və bir çox məsələlər arasında fərqlər var və olmalıdır. Bunu anlayışla qəbul etmək lazımdır.

Müasir dövrdə uşaqlar onsuz da istədiklərini edə bilirlər. Yəni bunu valideylərindən gizli də edirlər. Məsələ uşağın nə isə etməməsi deyil, həmin şeydən özü anlayaraq geri durmalıdır.

Əsasən də yeniyetmələr hiss etməlidirlər ki, valideynləri onunla bir şəxsiyyət kimi davranırlar. Onun geyiminə, davranışına, zövqünə hörmət edirlər. Çünki eşidilməyən, sayılmayan, hörmət edilməyən gənc istər istəməz həm valideynləri ilə, həm də cəmiyyətlə ünsiyyət problemi yaşayır".

***Abutel İlhamqızı***

## BUNU BİLMƏNİZ VACİBDİR: Tozlu hava bu xəstəliklərə səbəb olurmuş..

"1950-ci ildən bəri çirkli havanın insan sağlamlığına təsirini göstərən sübutlar var. 1990-cı illərdə isə epidemioloji çalışmalar aparılmış və çirkli havanın insan sağlamlığına necə təsir etməsi göstərilmişdir. Bu çalışmalarda ölümlər, xəstəxanaya müraciətlər kimi sağlamlıq göstəriciləri ilə havadakı çirkli maddələrin konsentrasiya arasındakı əlaqə araşdırılmış və hər ikisinin birlikdə artması və ya azalması təsdiqlənmişdir". Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Leyla Əmrahova deyib.



Onun sözlərinə görə, çirkli havanın insan orqanizminə təsirləri öskürək və bronxitdən, ürək xəstəlikləri və ağciyər xərçənginə qədər dəyişməkdədir: "Bu xəstəliklər həm sağlam, həm də bəzi risk qrupunda olan insanlarda baş verə bilər (uşaqlarda, hamilə qadınlarda, südverən analardan, yaşlılardan, xroniki tənəffüs sistemi xəstəlikləri olanlarda, siqaret çəkənlərdə daha ciddi halların meydana çıxmasına səbəb olur)".

Həkim sözlərinə belə davam edib: "Ümumi olaraq, çirkli hava tənəffüs funksiyalarının pozulmasına, tənəffüs sistemi xəstəliklərinin artmasına, xroniki tənəffüs sistemi xəstəlikləri olan insanların xəstəliklərinin kəskinləşməsinə, xroniki ürək xəstəlikləri olan insanların xəstəliklərinin kəskinləşməsinə, xərçəng və erkən ölüm risklərinin artmasına səbəb olur. Əlbəttə ki, içmə və suvarma su mənbələrinin, bitki örtüyünün də çirklənməsini nəzərə almaq lazımdır. Bütün bunlardan başqa beynəlxalq istiləşmə də insan sağlamlığına mənfi təsir göstərir".

***Ayşən Vəli***

## "Bayraktar"lar Ukraynada istehsal olunacaq...

### Çavuşoğlu Ukraynanın ərazi bütövlüyünə dəstək vəd edib



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, ölkəsinin Ukraynanın ərazi bütövlüyünü dəstəkləməyə və Krım tatarlarının hüquqlarını qorumağa davam edəcəyini bildirib. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə Türkiyənin "Anadolu" agentliyi məlumat yayıb.

...Ukrayna xarici işlər nazirinin birinci müavini Emine Caparova səmimi qəbula görə Türkiyə diplomatiyasının rəhbərinə təşəkkür edib.

Qeyd edək ki, bundan əvvəl Türkiyənin "Baykar Makina" şirkətinin pilotsuz uçuş aparatının Türkiyədə təqdimatı olub. Bayraktar Kizilelma adlanan pilotsuz təyyarə ilk uçuşunu həyata keçirdiyi Ukrayna istehsalı olan AI-322F mühərriki ilə yanaşı, Türkiyənin TF-6000 təyyarəsi ilə də təchiz oluna bilər.

"Baykar Makina" şirkətinin rəhbəri Haluk Bayraktar şirkətin Ukraynadakı zavodunda yeni Bayraktar Kizilelma pilotsuz uçan aparatını istehsal etməyi planlaşdırdıqlarını da bildirib. Onun sözlərinə görə, şirkət artıq Türkiyənin Bayraktar pilotsuz uçan aparatlarının istehsalı üçün zavodun tikintisinə başlayıb. Ukraynanın Türkiyədəki səfiri Vasili Bodnar bildirib ki, zavodun tikintisi bir neçə ay çəkəcək və işə salınması 2023-cü ilin sonuna qədər mümkündür.

Yeri gəlmişkən, bu arada Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov Türkiyənin "Bayraktar" pilotsuz təyyarələrinin istehsalı müəssisəsinin Ukraynada yaradılacağı təqdirdə dərhal demilitarizasiyaya məruz qalacağı barədə xəbərdarlıq edib.

***Ağasəf Babayev***

# ”Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu daha da artacaq”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan və İtaliya arasında diplomatik münasibətlərin 30-cu ildönümündə bu ölkəyə səfəri iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu göstərir.**



***Rauf Əliyev, Milli Məclisin deputatı***

**Cənab Prezident səfər çərçivəsində sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində ”The European Hous - Ambrosetti” beyin mərkəzi tərəfindən təşkil edilmiş ”Dünya, Avropa və İtaliyaya baxış” və ”Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi” mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda iştirak edib.**

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqinin və ”The European House - Ambrosetti” beyin mərkəzinin dəvəti ilə bu beynəlxalq forumda əsas qonaq qismində iştirak edib. Qeyd etmək lazımdır ki, 1965-ci ildən fəaliyyət göstərən ”The European House-Ambrosetti” İtaliyanın idrəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur.

Dövlətimizin başçısı forumun plenar iclasında ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxış edib. Cənab Prezident çıxışında bir çox mühüm məsələlərə münasibət bildirib.

Ölkələrimiz arasında siyasi dialoqun olduqca fəal olduğunu bildirən cənab Ptezident qeyd etmişdir ki, ikitərəfli əməkdaşlığın inkişafı üçün önəmli təşəbbüslər atılır, 2020-ci ildə İtaliya və Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənəd imzalanmışdır. Enerji təhlükəsizliyi ilə bağlı Azərbaycanın rolundan danışan cənab Prezident bildirmişdir ki, Azərbaycan İtaliyanı neftlə təchiz edən bir nömrəli ölkədir. 1994-cü ildə Azərbaycan müstəqilliyinin bərpasından üç keçəndən sonra dünyanın aparıcı enerji çirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə oldu. Azərbaycan tez bir zamanda Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildi. İki strateji neft boru kəmərinin inşası ilə Azərbaycan Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prossində təşəbbüsü öz üzərinə götürdü və bu vəzifəni uğurla həyata keçirir.

Azərbaycanın enerji strategiyasından danışan cənab Prezident qeyd etmişdir ki, bu strategiyanın önəmli mərhələsi nəhəng qaz yataqlarının istismarı ilə bağlıdır. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Azərbaycan son 10 ilə ərzində qonşu ölkələr bazarında etibarlı təzhizatçıya çevtilmişdir. Azərbaycan qaz təçhizatının həyata keçirilməsi üçün böyük qaz təchizatı boru kəmərlərinə malikdir. Cənub Qaz Dəhlizi üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir- Cənubi Qaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik(TAP) boru kəməridir ki, o, İtaliyaya qədər uzanır. Bu, 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturdur. Azərbaycan təbii qaz ehtiyatlarına tələbatın durmadan artdığını bildirən cənab Prezident qeyd etmişdir ki, bir il yarım ərzində Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun da 11,7 milyard kubmetri İtaliyanın payına düşür. Cari ildə İtaliya bazarına 10 milyard kubmetr qaz nəql etmək planlaşdırılır. Ümumi ixracın həcmi 22 milyard kubmetrdən artıq olacağı gözlənilir.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın inkişafından bəhs edərkən qeyd olunmuşdur ki, bu ilin avqust ayında Bakıda Avropa İttifaı ilə Azərbaycan arasında enerji sahəsində strteji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Bu Memorandum Azərbaycanın enerji resurslarının daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox vacib addımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu forumun plenar iclasındakı çıxışı ümumilikdə deməyə əsas verir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında qarşıya qoyduğu vəzifələri uşurla həyat keçirir və gələcəkda Azərbaycanın bu sahədə rolu daha da artacaq.



Qönçə Quliyeva

# Təhsilə, yoxsa formaya nəzarət?

**Avqust ayının sonundan və sentayabrın əvvəlindən şagirdlərin məktəbə hazırlaşması valideynləri düşündürən əsas məsələ olaraq qalır. Onlar uşaqlarını həm səliqəli, həm də maddi cəhətdən daha uyğun qiymətə məktəb ləvazimatları və forması ilə təmin etməyə çalışırlar. Və bu niyyətlə də alış-veriş mərkəzlərinə üz tuturlar.**

Bir anlığa düşünək ki, bir ailədə bir neçə uşaq var. Bəs onda bu xərcləri ödəmək üçün vəsait çatacaqmı? Əlbəttə, bu sual valideynləri daha çox düşündürür, eyni zamanda bunu böyük problem də adlandıra bilərik. Ata və ana övladlarının hər cür qayğısına qalmağa, onları digər uşaqlardan fərqlənməyəcək şəkildə məktəbli ləvazimatları ilə təmin etməyə çalışır. Təbii ki, onların maddi cəhətdən vəziyyətləri bir o qədər yaxşı olmasa da bunları uşaqlara və ətrafdakılara bildirmək istəməzlər. Hər il yeni çanta, ayaqqabı, məktəbli forması, kitab və dəftər, üst geyimi almaq mümkün deyil. Əslində, bu, mümkün ola bilərdi, bazarda qiymətləri münasib olsaydı.

Düşünsək ki, 3 ildən bir formalarda müxtəlif dəyişikliklər edilir. Nəzərə alaq ki, yay və qış geyimləri də ayrıdır. Bir azdan ayaqqabıları belə standart seçəcəklər. Düzdür, məktəbli forması şagirdin səliqəli görünüşünü təmin edir. Biz geyimin eyni olmasına qarşı deyilik. Sadəcə, bu formalarlarda tez-tez dəyişikliyin olması, bazarda qiymətlərin bir qədər baha olması nə qədər düzgündür? Minimum əməkhaqqı alan valideyn övladını məktəbə necə hazırlasın?

Hələ bunun digər dərdi də var. Görəsən Bakı Tikiş Fabriki qısa müddətdə valideynləri ilə birlikdə növbə gözləyən məktəbliləri forma ilə təmin edə biləcəkmi? Çox valideyn günlərlə fabrikə gedib forma üçün növbədə dayanır. Axı, bu qədər şagirdə qısa müddət ərzində forma çatdırmaq mümkün də deyil. Vaxt az, şagird çox, valideynlərin madiyyat cəhətdən sıxışdırılmış vəziyyətdə...

Düşündükcə, dərinə getdikcə problemin daha böyük olduğunu görürük. 4 uşaqlı ailədə valideyn bütün uşaqlarına hansı pulla məktəbli forması alsın. Formadan başqa kitab, dəftər və digər ləvazimatların pulunu saymıram belə. Hesablasaq görərik ki, xərci daha çoxdur. Eyni zamanda qeyd edək ki, BTE-dən başqa yerlərdən forma almağa da icazə verilmir. Yəni forma almaq üçün bu istidə o növbədə dayanmağa məcbursan. Bu formalara olan diqqət və məcburiyyət bir az da oxumaq üçün olsaydı, indi ölkədə 700 bal toplayan tək abuturiyent Türkiyəni seçməzdi və ya atesttatla xaricə qəbul üçün sənəd verənlərin sayında artım olmazdı. Düşünürəm ki, formalara nəzarət mexanizmi yox, təhsilə və elmə nəzarət mexanizmi olmalıdır.

Bir necə ilə bu formalarda da problem tapıb dəyişməsələr yaxşı olar. Məktəblərin bufetlərinə, laborotoriyalarına, kamputer otaqlarına diqqət etsələr, hər ay uşaq dərsi mənimsəməmiş kiçik summativ qiymətləndirmə və ya böyük summativ qiymətləndirmə aparmaq əvəzinə tədris ilinin sonunda ümumi qiymətləndirmə aparıb, səviyyə göstəricilərini müqayisə edib müxtəlif monitorinqlər apararaq məktəblilərin bilikləri tam qavraması və yaxşı bildikləri fənnlər və sahələr üzrə təkminləşməsi üçün çalışmalıyıq.

# Putinin düşməni İngiltərənin Baş naziri oldu

**Böyük Britaniyanın xarici işlər naziri Liz Trass hakim Mühafizəkarlar Partiyasının sədri və ölkənin yeni Baş naziri seçilib. SİA xəbər verir ki, məlumatı BBC yayıb. Sentyabrın 5-də Mühafizəkarlar Partiyasına yeni lider seçkisi keçirilib. Siyasi təşkilatın sədri vəzifəsi uğrunda Liz Trass və paytaxt Londonun meri Rişi Sunak mübarizə aparıb. Səsvermənin altıncı turunda L.Trass Mühafizəkarlar Partiyasının 81 326 üzvünün dəstəyini qazanıb. Onun rəqibi R.Sunak 60 min 399 səs toplayıb. L.Truss Mühafizəkarlar Partiyasının lideri və Baş nazir vəzifəsində Boris Consonu əvəz edəcək.**



B.Conson yaxın vaxtlarda Böyük Britaniya kraliçası II Elizabetə hökumət başçısı vəzifəsindən istefa verməsi barədə hesabat verməli və L.Trassı onun xələfi kimi təqdim etməlidir. L.Trass kraliça ilə görüşdən sonra rəsmi olaraq Baş nazir olacaq.

Qeyd edək ki, L.Trassın 47 yaşı var. 11 ay xarici işlər naziri olmaqla, üç Baş nazirin hökumətində altı nazir vəzifəsində çalışıb.

L.Trassın dövründə Britaniya Xarici İşlər Nazirliyi Rusiyaya qarşı ən sərt sanksiyaları tətbiq edib. O, Rusiyanın Ukraynaya təcavüzündə Kiyevi ən qəti dəstəkləyən, Rusiya Prezidenti Vladimir Putinə qarşı kəskin düşmənçiliyi və Rusiya liderinə qarşı daha sərt davranmağa çağıran siyasətçilərdən biridir. Onun yeni ”Dəmir Ledi” olmaq istədiyi güman edilir.

# "Müstəqilliyimizin uğurla sona çatmasında Heydər Əliyevin böyük xidmətləri olub"

"Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində çox mühüm yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər





haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir: "Ən əsası odur ki, bu səhifələr Azərbaycan xalqının və dövlətinin inkişafını özündə ehtiva edən, onu stimullaşdıran səhifələrdir. Belə mühüm səhifələrdən biri də 1991-ci il sentyabr ayının üçü ilə başlalayan səhifədir. 3 sentyabr 1991-ci il tarixi dövlətçilik tariximizdə yeni bir mərhələnin başlanğıcıdır. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi Azərbaycanın müstəqilliyi istiqamətində atılan mühüm addıma çevirildi. Bundan sonra Naxçıvandan başlayan milli müstəqillik uğrunda yeni dönüş mərhələsi bir qədər sonra Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi ilə milli dövlətçiliyimizin əsas ideyalarından birinə çevirildi. Ulu Öndər Heydər Əliyevin Ali Məclisin tribunasından etdiyi çıxışı isə əslində milli dövlətçilik prinsiplərimizin elan olunması və hədəflərinin göstərilməsi idi. Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər Heydər Əliyev böyük xidmətlər göstərdi. Baxmayaraq ki, o dövrdə, istər siyasi baxımdan, istər iqtisadi baxımdan, istərsə də mənəvi-psixoloji baxımdan daim məhdudiyyətlər və təzyiqlər altında fəaliyyət göstərirdi. Amma Naxçıvana gələr-gəlməz dərhal Naxçıvan MR Ali Sovetində Azərbaycanın bugünkü bayrağını və eyni zamanda, Azərbaycanın tarixi bayrağını 1918-1920-ci illərdə dalğalanmış üçrəngli bayrağımızı, məhz, xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı. Bu addımın özü xalqımızn milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh və optimizm gətirdi. Bu gün də davam edən Heydər Əliyev ideyalarının təFyin etdiyi müstəqillik yolumuz Azərbaycana böyük tarixi zəfər qazandırmaqla onun gələcək inkişafını müəyyən edir".

***Arzu Qurbanlı***

## "Samo" iddia edir ki, dezertir deyil?

### Samvel Babayan Mikael Arzumanyanın, Cəlal Arutyunyanın aqibətlərini yaşamamaq üçün planlar cızır

Erməni işğalçı qüvvələrinin Qarabağdakı keçmiş "komandanı" və 2020-ci ildə özünü "dqr"in "təhlükəsizlik şurasının katibi" kimi sırıyan "Samo" ləqəbli Samvel Babayan onu fərarilikdə ittiham edənlərə cavab vermək və boynundakı dezertir damğasını silmək üçün özünü daha da çıxılmaz vəziyyətə salıb. SİA xəbər verir ki, erməni KİV-lərinin yazdığına görə, Babayan 44 günlük müharibənin son günlərində bundan sonrakı müqavimətin yersiz olduğunu deyərək 2020-ci ilin 6 noyabr tarixində İrəvana qaçıb.



Sən demə 2020-ci ilin 6 noyabrında o Qarabağdan qaçmayıb və "Araik Arutyunyanın göstərişi" ilə İrəvana gedibmiş (???)

Babayan ona qarşı ünvanlanmış ittihamlara cavab olaraq deyib ki, sən demə 2020-ci ilin 6 noyabrında o Qarabağdan qaçmayıb və "Araik Arutyunyanın göstərişi" ilə İrəvana gedibmiş və s. Və maraqlısı da budur ki, "Samo" Arutyunyanın ona verdiyi "göstərişinin" nədən ibarət olduğunu açıqlamayıb, guya bu, "dövlət və xidməti sirrdir" (???).

Halbuki, Samvel Babayannın Qarabağdan qaçışından sonra oradakı separatçı-quldur və işğalçı rejimin bütün heyəti İrəvana qaçmışdı.

Artıq hazırda Qarabağda işğalçı rəhbərliklərin də məhkəmələrinə hazırlıq işləri gedir. Bu xüsusda Mikael Arzumanyanın, Cəlal Arutyunyanın və sairlərinin də fərarlikdə, xəyanətdə və s. ittihamlarda suçlandıqları təsdiqini tapıb. Görünür, "Samo" da həmin aqibətlərdən yaxa qurtara bilməyəcəyi üçün indidən tədbir planlarını işə salıb.

***R. Nurəddinoğlu***

# "Svobodnaya pressa": "Əgər Vardanyan fransız ordusunu Qarabağa gətirərsə"

*Rusiya nəşrindən erməni sarkazmı*

**Nüfuzlu Rusiya nəşri Rusiya vətəndaşlığından imtina etmiş erməni milyarderi hədəfə aldı**



Rusiyanın nüfuzlu siyasi-ictimai qəzeti - "Svobodnaya pressa" Rusiyanın tanınmış bankiri və sərmayəçisi, həmçinin milyarderi, erməni Ruben Vardanyanın Qarabağa köçməsini və Rusiya vətəndaşlığından imtina etməsi qərarını "zəlzələ" kimi qiymətləndirib.

Adıçəkilən rus nəşri eyni zamanda, Vardanyanın vətəndaşlıqdan imtina etməsini və Qarabağda yaşamaq qərarını ümumi versiya kimi də irəli sürməklə əsas marağının, yaxud planının da üstünü açıqlayıb - o Ermənistanın baş naziri olmaq üçün bu qərarını verib.

**"Özünü ciddi hesab edən heç bir siyasətçi belə bir məqamda müraciət ünvanlayaraq özünü uşaq bağçası kimi göstərməzdi"**

"Açıq şəkildə anti-Rusiya ruhlu Paşinyan Ermənistanda hakimiyyətə gəldiyi zaman Vardanyan Ermənistan və Rusiya siyasi səhnəsində nə görünürdü, nə də eşidilirdi. Onun erməni diasporunun tanınmış nümayəndələri Marqarita Simonyandan, Karen Şahnazarovdan, Semyon Baqdasarovdan fərqli olaraq Ermənistan liderinin anti-Rusiya siyasətinə qarşı münasibəti də heç cür sərgilənməyib. Mümkündür ki, bu onu qane edirdi. Həm də mümkündür ki, o Nikola hər hansısa ümidlər bəsləyirdi. Biz bunu öyrənə bilməyəcəyik", yazan "Svobodnaya pressa" əlavə edib ki, Vardanyan böyük siyasətdəki ilk real çıxışını Qarabağdakı müharibə vaxtı edib: "Oradakı vəziyyət ümidsiz idi. Azərbaycan ordusu bütün cəbhələrdə zərbələrini endirirdi. Onda Ruben Karlenoviç Putinə açıq məktubla müraciət etdi ki, erməni maraqlarını qorumaq üçün oraya Rusiya ordusunu göndərsin. Üstəlik, o həmin mövqeyinə arqument gətirmək üçün heç bir əsas göstərə bilmədi. Və ümumiyyətlə, özünü ciddi hesab edən heç bir siyasətçi belə bir məqamda müraciət ünvanlayaraq özünü uşaq bağçası kimi göstərməzdi".

**"Belə bir təəssürat yaranır ki, həmin məktub aşkar populist xarakter daşıyırdı və Ruben Karlenoviç onda Qarabağ haqqında düşünmürdü"**

Rusiya nəşri Vardanyanın sözügedən davranışını həm də belə şərh edib: "Belə bir təəssürat yaranır ki, həmin məktub aşkar populist xarakter daşıyırdı və Ruben Karlenoviç onda Qarabağ haqqında düşünmürdü. Əks halda o "ümumbəşəri dəyərlər" frazasını əks etdirməyən başqa məktub yazardı. Məsələn, "əzabkeş xalqını" xilas etmək üçün xahiş edərdi, ya da bu kimi başqa məzmunda...".

"Xarakterik olan isə budur ki, Rusiyada yaşayan erməni diasporundan heç kim Vardanyanın davranışında heç bir mühakimə olunacaq şey görmədi. Görünür, "kiçik vətənə olan sevgi" ümumi geosiyasi əhatə dairəsini nümayiş etdirir və strateji proqnozlar irəli sürmək imkanlarını məhdudlaşdırır. Qanın səsi sağlam məntiqli təsəvvürlərdən güclüdür. Bəs minnətdarlıq? Kimə? Rusiyaya? Yox, eşitmədik...", deyə adıçəkilən nəşr Vardanyanı hədəfə alaraq onun davranışlarını haqlı şəkildə ittiham edir.

**"Əgər fransızlar Qarabağa hərbi kontingent yürütsələr bu iş amerikalıların Kabildəki sonluqları kimi nəticələnəcək"**

"Svobodnaya pressa" xatırladır ki, günü bu gün də rus əsgərləri "qarabağlıları" (Qarabağda yaşayan erməniləri - R.R.) mühafizə edir: "Və Ruben Vardanyanın özü də öz videomüraciətində onlara minnətdarlıqlarını bildirir. Hansı ki, bu onun Fransaya gedib Ermənistanla Azərbaycan arasındakı danışıqlar üzərində özünü imitasiya etməzdi (hansı ki, bunun özü Rusiyanın Zaqafqaziyadakı maraqlarına obyektiv şəkildə zərər vurur- "Svobodnaya pressa"). Əgər fransızlar bankirin istədiyi kimi sülhməramlı gündəmini ələ keçirsələr və Qarabağa hərbi kontingent yürütsələr bu iş amerikalıların Kabildəki sonluqları kimi nəticələnəcək", kolumnist İqor Moiseyev adıçəkilən nəşrdə hədəfə aldığı Ruben Vardanyana həsr etdiyi "Kubik Rubik" adlı məqaləsində vurğulayır.

***Rövşən RƏSULOV***

# Ermənilərin çıxarmalı olduqları NƏTİCƏLƏR

**Azərbaycan uzun müddətdir ki, Qərb üçün, ümumiyyətlə, bütün dünya ölkələri üçün mühüm tərəfdaş olaraq qəbul olunduğu halda, Ermənistan gündən-günə geriləməkdə, hətta yaddaşlardan belə silinməkdədir. İndi erməni cəmiyyəti özü də ona görə təlaş içindədir ki, özlərinə rəqib hesab etdikləri Azərbaycan öz yerini çoxdan müəyyənləşdirib və bu yeri durmadan möhkəmləndirməkdədir, halbuki ermənilərin vəziyyəti günü-gündən pisləşir.**

Bilirik ki, uzun illərdir erməni cəmiyyəti öz-özü üçün guya məğlubedilməz bir qondarma mif yaratmışdı və bu mifin fonunda da Azərbaycanı gücsüz ölkə kimi təqdim etmək sanki bir erməni ənənəsinə cevrilmişdi. Erməni cəmiyyəti bu ənənənin havasında ikən birdən ayıldı ki, məğlubedilməzlik bir tərəfə, rüsvayçılıq içərisindədirlər. Ermənilər qəflətən fərqində oldular ki, qondardıqları hər şey də əllərindən çıxıb, qondardıqları mifləri də darmadağın edilib, hətta rəzil vəziyyətlərini də bütün dünya müşahidə edir. Gördülər ki, dünya ictimiyyəti Azərbaycanın möhtəşəm qələbəsini etiraf etdi və bizim hərbimiz, apardığımız savaş, sonuncu müharibə dünyanın sayılıb-seçilən hərbi məktəblərində tədris edilir, öyrənilir.





Təbii ki, rəqibi qiymətləndirməməkdən daha böyük səhv və təhlükəli bir şey yoxdur. Ələləxüsus, Ermənistan, özü get-gedə zəiflədiyi, tamamilə uğursuz bir ölkəyə çevrildiyi halda, erməni cəmiyyətinin rəqib kimi bəllədiyi ölkəmizin uğurlarını hesaba almaması, qüdrətləndiyini görməməzliyə vurması və ya gizlətməsi çox böyük səhvdir, hansıki bu səhvin bədəlini erməni xalqı ödəməli oldu. Azərbaycanın uğurlarını, müvəffəqiyyətlərini, üstünlüklərini düzgün qiymətləndirməyən, yaxud, düzgün qiymətləndirməkdən boyun qaçıranlar Ermənistanı çox acınacaqlı duruma sürükləyiblər, çünki özləri-özlərini aldadaraq uçuruma aparıblar. Guya yaşayışı qibtə olunmalı olan Ermənistan, ermənilərin öz dilləri ilə desək, qibtə olunmaz hala düşdü, yəni çox aciz bir duruma. Halbuki, ermənilər normal, sivil, sülh və əminamanlıq şəraitində yaşamağı, mövcudluğu qruya bilərdilər ki, hər kəs bunun əksini müşahidə edir.



Avropa Şurasının Sədri Şarl Mişelin vasitəçiliyi ilə Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti cənab İlham Əliyevin dördüncü Brüssel görüşünün nəticələrini gözdən keçirərkən, dəyərləndirərkən bir sıra incə məqamlar ortaya çıxır ki, bu da erməni cəmiyyətini, ən sıravi ermənini ayıltmaq üçün kifaət edər. Ən azından ermən cəmiyyəti, erməni xalqı görməli, dərk etməli, heç olmasa fərqində olmalıdır ki, hələ də kimlərsə tərəfindən aldadılır və yenə də yalanlarla doldulruları nəyə isə, hansı yola isə təhrik edilirlər, hansıki bu, onların xilas yolu deyil, məhvinə aparan yolduq. Ermənistan ictimaiyyəti görməlidir ki, hər şey rəsmi Bakının maraqlarına, tələblərinə uyğundur və deməli, onlara verilən yalan vədlər, yalanlar, ayaq tutub yerimir. Proses Azərbaycanın istədiyi şəkildə gedir və getməlidir də.

Əgər nə vaxtsa beynəlxalq miqyaslı görüşlərdə, platformalarda ”Dağlıq Qarabağ” ifadəsi işlədilirdisə, indi artıq işlədilmir. Zaman-zaman ermənilər məhz Ermənistan hakimiyyəti tərəfindən aldadıldığı ortaya çıxır. İndi erməni cəmiyyəti, Ermənistan ictimaiyyəti, ermənilər nəticə çıxarmalıdırlar. Bilməlidirlər, başa düşməlidirlər ki, onlara vəd edilən yalnız yalan ifadələr olub. Çoxdandır ki, ermənilər öz içlərindən olan avantüristlərin manipulyasiya etmələrinə görə ciddi ziyan görüblər. Artıq nəticə çıxarmalıdırlar ki, belə davam etsə daha böyük zərərlə, hətta bir-birinin ardınca fəlakətlə qarşılaşmalı olarlar.

Ermənistan ictimaiyyəti də elə bütün dünya ictimaiyyəti kimi görür ki, Azərbaycan həddindən artıq güclənib və güclü dövlətdir. Hər kəs görür ki, Azərbaycan gücəndikcə Ermənistan zəifləyib, zəifləməkdə də davam edir və ölkəmizin qüdrəti qarşısında hansısa avantüristin, manipulyatorun yaratmaq istədiyi qondarma mif heç bir rol oynya bilməz. Onsuz da yaratdıqları miflər Azərbaycan tərəfindən cəmi 44 gün ərzində darmadağın edildi və indi danışılacaq söz, veriləcək vəd belə qala bilməz. Ermənistan tərəfinin ən böyük və əsas səhvi prosesləri, Azərbaycanın günü-gündən gücləndiyini, qüdrətli dövlətə çevrildiyini əvvəlcədən görə bilməməsi, yaxud görmək istəməməsi və adekvat qərarlar qəbul edə bilməməsidir. Rəsmi Bakının guya blef etdiyini öz çıxışlarında daxili auditoruyaya söyləyən, bununla da öz çirkin niyyətlərini həyata keçirməyə çalışanlar indi erməni cəmiyyətinin hədəfində olmalıdır. Ona görə ki, Azərbaycanı guya gücsüz kimi qələmə verməklə, özlərini isə guya məğlubedilməz göstərməklə onlar bütövlükdə erməni cəmiyyətini yanlış yola sürükləyiblər. Elə indi də proseslərin, ələlxüsus Zəngəzur dəhlizinin reallaşdırılmasının, başlıcası da sülh danışıqlarının yubandılmasına çalışanlar erməni xalqını, Ermənistan ictimaiyyətini aldadırlar. Artıq ermənilər doğru nəticələr çıxarmalıdırlar və Azərbaycanın yaratdığı reallıqlarla barışmalıdırlar.



Bütün dünya Azərbaycanın yaratdığı reallıqları qəbul edib. İlk növbədə ermənilər özlərinə tərəfdaş bildikləri Rusiya tərəfinin də bu reallıqları qəbul etdiyini görməlidirlər. Görməlidirlər və nəticə çıxarmalıdırlar ki, ən böyük məğlubiyyətlə qarşılaşıblar və bu məğlubiyyətləri fonunda qalib tərəf olan Azərbaycanın tələblərini yerinə yetirməli, sülh danışıqlarını yubatmamalıdırlar. Bilməlidirlər ki, indi artıq Azərbaycan bölgədə ən güclü dövlətdir və dünyanın ən inkişaf etmiş ölkələri belə bu reallığı qəbul edir. İndi ermənilərin çıxara biləcəyi ən doğru nəticə ondan ibarətdir ki, Ermənistan bir dövlət olaraq Azərbaycanın yaratdığı reallıqları qəbul edərək, sülh danışıqlarına gedərək, bununla da bölgədə marginallaşmış vəziyyətdən çıxaraq məhv olmaq təhlükəsini aradan qaldırsın.

***İnam Hacıyev***







# Abşeronda şəhid ailələrinə və qazilərə böyük diqqət var

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın qələbə qazandığı 44 günlük Vətən Müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan abşeronlu igidlər doğum günlərində anılıb."Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülən şəhid gizir Rəşidov Ziyəddin Arzu oğlunun 25-ci, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülən şəhid İsgəndərov Anar Vahid oğlunun 21-ci, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülən Məmmədov Tərlan Müşfiq oğlunun 26-cı, "Vətən uğrunda", "Cəbrayıllın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görülən Həşimov Fuad Ceyhun oğlunun 26-cı, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülən Müslümov Elşən Habil oğlunun 27-ci doğum günləri qeyd edilib.

Anım tədbirləri ilə əlaqədar Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnar Rəhimova, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Abşeron Rayon Təşkilatının sədri Abbas Əliyev, şəhid ailələri və qazilərlə birgə Xırdalan şəhərindəki, o cümlədən Saray qəsəbəsindəki Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin məzarlarını ziyarət edib, vətənimizin bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi yad edilib, ruhlarına dualar oxuyub, məzarları üzərinə tər çiçəklər düzülüb. Şəhidlərimizin keçdiyi döyüş yolundan danışılıb, onların göstərdiyi hərbi xidmətlərdən və şücaətlərdən bəhs edilib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev mərasimlərdə çıxış edərək bildirib ki, ölkəmizdə şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Qeyd edilib ki, şəhid ailələri və qazilər həyatlarının hər bir anlarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını hiss edirlər.

Vurğulanıb ki, "Dəmir yumruq" ətrafında birləşən Azərbaycan xalqı düşmən üzərində döyüş meydanında şərəfli qələbə qazanaraq torpaqları işğaldan azad edib. Vətən Müharibəsi zamanı şəhidlərimizin qisasının layiqincə alındığı qeyd edilərək bildirilib ki, qəhrəman döyüşçülərimizin adlarının əbədiləşdirilməsi istiqamətində müxtəlif layihələr icra olunub və bu işlər bundan sonra da davam etdiriləcəkdir.

Daha sonra şəhidlərimizin əvvəllər yaşadıqları evlərə gedilərək onların ailə üzvlərinə baş çəkilib, ailələrin qayğıları və problemləri ilə maraqlanılıb. Şəhid ailələri də öz növbələrində ölkəmizdə onlara dövlət səviyyəsində böyük diqqət və qayğının göstərildiyini vurğulayıb və buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini ifadə ediblər.

# YAP Bərdə rayon təşkilatının əməkdaşları qazinin evində olublar



**YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya başda olmaqla təşkilatın məsul işçiləri - Elməddin Əsgərxanov, Əlövsət məmmədov, Nurayə Məmmədova, Coşqun Tapdıqlı, Vasif Mehdizadə və Türkmən kənd ƏPT sədri Firdovsi Nəcəfov birlikdə rayonun Türkmən kəndindən olan, yenidən əməliyyat olunub evinə qayıdan qazi - çavuş Yusifzadə Məhəmməd İsrafil oğluna baş çəkmişlər.**



Çavuş Yusifzadə Məhəmməd İsrafil oğlu 7 il yarım idi ki, Azərbaycan Silahlı Qüvvələrində Vətənə xidmət edirdi. O, sentyabr ayının 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücuma başlanan Vətən müharibəsində Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak etmiş və elə orada da yaralanaraq sol ayağını itirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə çavuş Yusifzadə Məhəmməd İsrafil oğlu "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir. Ailəlidir. 4 yaşlı qızı və 3 yaşlı oğlu var.

Qazi Yusifzadə Məhəmməd ilə görüş zamanı Fəqət Şadlinskaya bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, güclü Komandanlığı, xalqımızın birliyi və müzəffər Ordumuzun peşəkarlığı sayəsində 30 illik həsrətə son qoyuldu. 2020-ci il ölkəmiz üçün Qələbə ili kimi tarixə düşdü. Qəhrəman oğullarımızın Vətən uğrunda göstərdiyi fədakarlıqlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Onların hər biri orden və medallarla təltif olunmuş, ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Qazi Yusifzadə Məhəmməd öz hərbidəki xidmətlərindən və ömür yolundan danışmış, pulsuz müalicə olunduğundan və protezlə təmin olunmağından, "YAŞAT" Fond tərəfindən maddi köməklik edildiyindən söz açmış, möhtərəm Prezidentimiz cənab İlham Əliyev və ölkənin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində qazilərə göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə etmişlər. YAP rayon təşkilatının sədri və məsul işçiləri ailənin çətinlikləri ilə maraqlanmış və bəzi problemlərin həlli üçün köməkliklər göstərmişlər.




# Qubada şəhidin ailəsi ziyarət olunub



Quba rayonu İkinci Nügədi kəndindən olan Vətən müharibəsi şəhidi Mikayılov Rahim Qalib oğlunun doğum günü qeyd edilib. Yeni Azərbaycan Partiyası (YAP) Quba rayon təşkilatının sədri Fidan Hüseynova, təşkilatın əməkdaşları şəhidin ailəsini ziyarət ediblər.

Görüşdə Rahim Mikayılovun şərəfli həyat və döyüş yolu, torpağa, milli-mənəvi dəyərlərə bağlılığı, müqəddəs şəhidlik zirvəsinə ucalmasından bəhs edilib, şəhid ailəsinin qayğı və problemləri dinlənilib. Təşkilat sədri dövlətin şəhid ailələrinə və qazilərə həssas münasibətindən söz açaraq bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim müvafiq kateqoriyadan olan ailələrə doğma münasibət bəsləyir, onları narahat edən problemlərin həlli ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirir.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Rahim Mikayılov Kəlbəcər və Murovdağ istiqamətində gedən döyüşlərdə mərdliklə savaşaraq şəhidlik zirvəsinə ucalıb. Hərbçimizin nəşi 118 gündən sonra tapılaraq Quba rayonuna gətirilib və doğulduğu İkinci Nügədi kəndində torpağa tapşırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Rahim Mikayılov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunması görə" medalları ilə təltif edilib. Qəhrəman döyüşçünün üzünü görmədiyi körpə oğlu Vətənə əmanət qalıb.

*Nəzakət*

# Gubada və gübad kimilərə atüstü cavab



**Çoxdandı Feysbuk səhifələrində yazışmalardan uzaq qalmışam. Bilmirəm, bəlkə yaşla əlaqədardı, bəlkə bu sosial şəbəkələrdə kim ağzına və ağlına nə gəlirsə onu yazmağından yaranan ikrah hissi ilə bağlıdır, həvəsim tükənib artıq. Amma bu günlərdə təsadüfən bir dostumun mənə atdığı "müraciət" içimi elə tərpətdi ki, yazmaya bilmədim. Həm də təkcə Feysbukda yox, daha geniş oxucu kütləsi olan mediada dərc olunması üçün yazmağa qərar verdim.**

Söhbət bədnam Müsavat partiyasının (söhbət tariximizdə mövcud olmuş qüdrətli bir ideologiyanın adını mənimsəyib milli düşüncələri zəhərləmək yolunu tutuan indiki Müsavat Partiyasından gedir - T.N.) dövlət və dövlətçilik anlayışından bixəbər yetkililərindən olan Gubad (Qubad yox a... Məhz Gubad - çünki onun səhifəsində adı belə yazılır - T.N.) İbadoğlunun guya dərdinə yandığı məcburi köçkünlərə özünün çılız ağlına yaraşan müraciətindən gedir. Mən də məcburi köçkünəm və belələrinin müraciəti mənim kimi yüz minlərlə köçkünə vız gələr. Amma "milçək bir şey deyilsə də, ürək bulandırır" məşhur deyimini xatırlayıb ürəkbulandıran bu cılız fikirlərə bir-iki kəlmə "söz atmasam", bağrım çatlar.

Zavallı guya adamlara təsir etmək üçün qəribə bir girişlə başlayır müraciətinə: Bakıdakı 35 dərəcə isti ilə Kəlbəcərdəki, Laçındakı, Şuşadakı 28 dərəcə istini xatırladır və hakimiyyətin insanları bu gözəl havanı udmalarına, o yerlərdəki bulaqların buz kimi suyundan içmələrinə "mane"(?) olduğunu cızdağı çıxa-çıxa ərz eləyir. Anlaya bilmirəm, kim gedib bu havanı udmaq istədi, ona hakimiyyət mane oldu? Məqsədli şərçilər istisna olmaqla, belə bir faktı hansısa məcburi köçkün söyləyə bilərmi? Mən və yaxınlarım bu ilin yayında Ağdamın Abdal-Gülablı kəndində ata-babalarımızın məzarlarını ziyarət etdik, bu kənddəki soyuq bulaqların suyundan doyunca içdik, meşələrdə doyunca gəzdik. Sadəcə, icazə ilə və polislə, ANAMA əmkdaşlarının müşayiəti və nəzarəti altında. Əgər niyə icazə alınmalıdır və ya niyə polisin, ANAMA-nın nəzarəti ilə sualı verməli olsa, onun da məntiqli cavabı hər kəsə məlumdur, amma burda deyim Gubad da bilsin. Ağdamda, eləcə də digər işğaldan azad olunan ərazilərdə yüz minlərlə mina, digər partlamamış hərbi sursat olduğunu biz də, dünya da bilir. Ən təhlükəlisi də odur ki, bu hərbi sursatların mütləq əksəriyyəti 20-30 il əvvəl basdırılıb torpağa. Həmin minaların üstündə bu gün təkcə ot-ələf deyil, kollar, bəzən hətta ağaclar boy atıb. Metr-metr mina axtarılan ərazilərə adamlar sərbəst gedib-gəlsələr, nə qədər insan ölər, yaralanar, bunun fərqindədirmi bu cılız düşüncəli siyasilər? Sizi əmin edirəm ki, əgər dövlət bu ərazilərə sərbəst gediş-gəlişə icazə versə, orda həyatını itirən və ya şikəst olan hər kəsə görə belə düşüncəli "siyasilər" hakimiyyətdən izahat tələb olunmasını atardılar ortaya.

Sonra 60 manat çörək pulu məsələsinə toxunur və guya bunu dövlətin məcburi köçkünləri "aşağılaması" kimi uğursuz fikir səsləndirir. Bu siyasi korluq girdabına tutulmuşların nümayəndəsi dünyada nə qədər qaçqın və məcburi köçkün olduğunu, hansısa bir ölkədə həmin təbəqədən olan insanlara bu ölkədəki qədər şərait yaradılmadığını bilmirmi? Bilir, sadəcə, belə deməlidir, belə də deyir. Çünki şəxsi və siyasi ambisiyaları qudurub dövlət və dövlətçilik mənafelərini yeyib və bu mənafelər onlar üçün yaddır artıq. "28-30 il gedə bilmədiyiniz torpaqlara azad olunandan sonra nədən yurdunuza gedə bilmədiyinizin son iki ildə fərqinə vardınızmı?" Sualı bu zavallı verir. Bədbəxt bilmir ki, qayıdıb sual verərik ki, əcəba 28-30 il o yurd yerlərinə nədən gedə bilmirdik, nədən Azərbaycanın 20 faiz ərazisi bu gün xarabazara çevrilib, nədən bu insanların ata-babalarının məzarları 28-30 ildə dağıdılıb? Kimin günahı, xəyanəti bais olub bunlara? Məhz Gubadın yetkilisi olduğu Müsavatın lideri İsa və onun kimi hakimiyyət hərislərinin bu xalqa vurduğu misli görünməyən tarixi zərbəni niyə unudurlar bunlar? Unutmurlarsa, niyə heç olmazsa utanıb, ayıblarına sığınıb kirimiş, orurmurlar yerlərində? Onların hakimiyyət hərisliklərinə, bəzi hallarda hətta xəyanətlərinə qurban gedən bu Vətən torpaqlarını məhz bu hakimiyyətin, bu iqtidarın yaratdığı şanlı ordu, yenə məhz bu hakimiyyətin labirintləşmiş dünyada müdrik, ölçülüb-biçilmiş siyasəti azad etdi. Bunu qanmırlarsa, özlərini ağıl həkimlərinə göstərsinlər, qanıb da belə-belə yazılarla özlərini gündəmdə saxlamaq istəyirlərsə, bundan da vaz keçsinlər. Çünki bu millət 28-30 il əvvəlki millət deyil ki, kim gəlişi gözəl, ibarəli danışırsa, onun ardınca getsin. Gubadın məqsədi də budur. Guya bu yolla məcburi köçkünlərə təsir edəcək və onları küçələrə, Gubadın sözləri ilə desək, konkret "Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin qarşısına" toplayacaq. Sonra da xaricdən bunlara göndərilən pulların kompensasiyası üçün fotolar, videolar çəkib yollayacaqlar həmin ağalarına. Vəssalam! Ayının yüz oyunu bir armudun başında olduğu kimi, gubadların da bütün oyunları xaricdən aldıqları və alacaqları maliyyənin başındadır. Guya Gubad və onun kimilər qaçqınlara, məcburi köçkünlərə yeni şəraitdən xəbərsizdilər? Təkcə son üç ildə 10 mindən artıq məcburi köçkün ailəsinin müasir, təmirli, içi dolu mənzillərlə təmin edildiklərini bilmirlərmi? Hər həftə yüzlərlə məcburi köçkünün komitə rəhbərliyi tərəfindən qəbul edilməsi və bütün haqlı, qanunauyğun tələblərin həlli, son aylar isə azad olunan torpaqlara qayıtmaları planlaşdırılan məcburi köçkünlərlə məhz komitədə görüşlərin keçirilməsi, onların istək və arzularının öyrənilməsi, bu istək və arzuların Böyük Qayıdış Proqramında nəzərə alınması bu iqtidarın məcburi köçkünlərə və onların problemlərinə həssas münasibətinin bariz nümunəsidirsə, necə deyə bilərsiniz ki, bu iqtidar köçkünləri "aşağılayır"?

Yetər Gubad və gubadlar! Bu millət hakimiyyət ehtirasınıza və xəyanətlərinizə 28-30 il əvvəl göz yumdusa, elə hesab etməyin ki, yağışlar yağıb, çatlaqlar yoxalıb. Sizlərin dabbaqda gönlərinə yaxşı bələd olan bu millətin də heysiyyəti ilə çox oynamayın. Yoxsa bir gün bu millətin sizlərə olan nifrəti kükrəyəcək və həqiqətən küçələrə töküləcək, amma, əmin olun, sizlərin xəyanəti ilə 28-30 il həsrət qaldıqları yurd yerlərini azad edən bu iqtidara qarşı deyil, 28-30 il onları köçkün həyatı yaşamağa məcbur edən, yurd yerlərinin xarabazara çevrilməsinə, ata-babalarının məzarlarının dağıdılmasına səbəb olan sizin kimilərə yerlərini göstərmək üçün! Müzəffər Ali Baş Komandan, indiki iqtidarın və ümumən, Azərbaycan xalqının, 50 milyonluq dünya azərbaycanlılarının iftixar keçirdiyi lideri olan İlham Əliyevin 300 illik məğlubluq sindromundan çıxarıb da dünyada qalib xalq kimi şərəfli ad bəxş etdiyi bu millətin sizin kimilərin sözü ilə liderinə qarşı çıxacaqlarını güman etməyiniz də, ağıl probleminizin olduğuna dəlalət edir. Odur ki, bir daha ağıl həkiminə müraciət etməyinizi məsləhət görərdik! P.S. Yazıda Gubadın "Çünki oralarda (azad olunmuş ərazilər nəzərdə tutulur - T.N.) həyat, iş deyil, korrupsiya çiçəklənir" ifadəsinə fikir bildirmədim. Bizlərə orda görülən nəhəng işlərin həcmi məlumdur və belə məqsədli yazılar gördüklərimizə inanmaqdan bizləri vaz keçirə bilməz. Amma hesab edirəm ki, bu iddia ilə bağlı hüquqi prodsedura ehtiyac var: ya sübut eləsin, ya da böhtanına görə qanun qarşısında cavab versin! P.P.S. Bir də onu əlavə etmək istəyirəm ki, bu zavallılar başlarını başlara qoşmaq üçün dəridən-qabıqdan çıxırlar. Yaxşı olar ki, özlərinə bab adam (Məsələn, Paşinyan kimi) tapıb, onunla siyasi yarışa girməyə can atsınlar. Onlar hara, indiki Azərbaycan iqtidarı hara?!

***Təhmasib Novruzov,***
***yazıçı-publisist.***



## "Ermənistan sabotaj xarakterli addımların atılmasında maraqlı deyil"

"31 avqust tarixində Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş ərəfəsində və həm də görüş bitdikdən sonra çox mühüm ciddi nəticələr Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi ilə bağlı uğurlu qərarlar qəbul edildikdən sonra Ermənistan tərəfindən bu görüşün və əldə olunmuş qərarların sabotaj edilməsi istiqamətində çox ciddi səylər edildi və təxribatlar törədildi". Bunu politoloq Anar Əliyev "SƏS" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın görüşdən iki gün sonra Azərbaycanın Xankəndi şəhərinə qanunsuz səfər etməsini və Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığına hörmətsizlik davranışı nümayiş etdirməklə yanaşı həm də 31 avqusta Ermənistan baş nazirinin üzərinə götürdüyü və Ermənistan dövlətinin nümayəndəsi olaraq üzərinə götürdüyü öhdəliklərə qarşı bir addım kimi qiymətləndirirəm: "Amma sonradan Azərbaycan dövlətinin xüsusilə xarici işlər nazirliyinin sərt bəyanatından sonra Armen Qriqoryanın üzürxaxlıq etməsi və həmin əraziyə bir qarabağlı erməni kimi ailələrinə məxsus basabasının qəbrinin baş çəkməsi ilə bağlı addım kimi təhlil etməyə çalışması onu göstərir ki, bəli Ermənistanda siyasi hakimiyyət mümkün qədər açıq formada sabotaj xarakterli addımların atılmasında istəkli və maraqlı deyil. Amma ümumiyyətlə, bütövlükdə götürdükdə Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsində maraqlı olmayan kifayət qədər həm Ermənistan daxilində qüvvələr, həm də Ermənistan kənarında ayrı-ayrı dövlətlər və ciddi qüvvələr fəaliyyət göstərir".

Anar Əliyev onu da qeyd etdi ki, Şimal və Cənub qonşumuzu və Qərbi Avropa dövlətlərini Amerikanı ki, onlar heç də Azərbaycanla Ermənistan arasında münasibətlərin tam sona qədər normallaşması və qarşılıqlı inam etimad mühütünün yaranmasında maraqlı deyillər: "O halda adını sadaladığım qüvvələrdən heç birinə Cənubi Qafqazda ehtiyac qalmayacaqdır. Xüsusilə də İran və Rusiyanın proseslərə müdaxilə imkanları kifayət qədər azalacaqdır. Hətta Rusiyanın bölgədə hərbi iştirakçılığa ehtiyac belə aradan qalxmış olacaqdır. Bunları nəzərə alaraq hesab edirəm ki, Armen Qriqoryanın bölgəyə səfərində həm də maraqlı kənar qüvvələrin də rolu olmamış deyil. Bu addımlar əslində Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi kommunikasiya əlaqələrinin açılması Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından imtina etməsi prosesini mümkün qədər uzadılması və ya qarşısının alınmasına xidmət edir. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsindən sonra həyata keçirdiyi düşünülmüş, soyuqqanlı və nəticə yönümlü siyasətin davamı olaraq hesab edirəm ki, Ermənistan növbəti üzərinə götürdüyü öhdəliklərində yerinə yetirilməsi məcburiyyətində qaldığı və bunlardan yayınmağın mümkün olmadığını dərk edir. Hətta əksinə bu öhdəliklər yerinə yetirilməzsə zərər çəkən tərəfin böyük mənada Ermənistan xalqı olacağı və bu təhlükələrin artıq Ermənistan üçün bir müstəqil dövlət olaraq təhdidlər formalaşdırdığını dərk edir. Bu prizmadan yanaşdıqda hesab edirəm ki, belə təxribat xarakterli addımlar böyük mənada proseslərin axarın ciddi təsir edə bilməyəcəkdir. Azərbaycan dövlətinin təkidləri və təzyiqləri eyni zamanda, beynəlxalq güclərin tələbi ilə Ermənistan bölgədə daha doğrusu münasibətlərin qurulmasını istəyən güclərin tələbi ilə Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək məcburiyyətində qalacaq".

***Gülyana***

# "Qarabağın qalan hissəsi hər bir halda Azərbaycanın nəzarətinə qayıdacaq"

## Sergey Markov: "ABŞ və Fransanın ermənipərəst mövqe tutduğu məlumdur. Ona görə də Paşinyan Minsk qrupunu "canlandırmağa" çalışır, çünki o, güclü erməni diasporu, lobbisi olan ölkələri təmsil edir"



Ermənistanın baş naziri Nikol Paşinyan 1991-ci ildə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin qondarma müstəqilliyinin elan edilməsinin ildönümü ilə əlaqədar bildirib ki, "Dağlıq Qarabağın ərazi vahidi kimi mövcudluğunu inkar etmək yersizdir. Belə ki, təhlükəsizlik məsələləri və vilayət ermənilərinin hüquqlarının müdafiəsi və müvafiq olaraq Dağlıq Qarabağın statusu müəyyən edilib. ATƏT-in Minsk Qrupunun həmsədrliyinin beynəlxalq ictimaiyyət tərəfindən onların həlli üçün təsdiqlənmiş və hələ ləğv edilməmiş mandatı var".

Ermənistan liderinin sözlərinə görə, "beynəlxalq ictimaiyyət 44 günlük müharibə nəticəsində yaranmış humanitar problemlərin həlli və Dağlıq Qarabağda etnik təmizləmə siyasətinin qarşısının alınması üçün səy göstərməyə borcludur".

Eyni zamanda, "Qarabağ klanı"nın təmsil olunduğu müxalifət bir daha bəyan etdi ki, Ermənistanın əsas məqsədi Paşinyanın devrilməsi və bu arada nümayəndələri ABŞ-a gedən Qarabağ separatçılarının müdafiəsi olmalıdır. Onlar orada Konqresin ermənipərəst qüvvələri ilə görüşlər keçirəcəklər.

Azərbaycan və Ermənistan liderlərinin bu yaxınlarda Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Brüsseldə keçirilmiş görüşü fonunda bu, nə deməkdir? Yaxın gələcəkdə sülh müqaviləsi imzalana bilərmi? Rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bu məqamları "Moskva-Bakı" portalına şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***-Sergey Aleksandroviç, Əliyevlə Paşinyan arasında 4-cü Brüssel danışıqları başa çatıb və indi biz yenə erməni tərəfdən "zəng"i eşidirik - separatçı hissədə yaşayan ermənilərin təhlükəsizliyi, hüquqlarının müdafiəsi ilə bağlı təkrar bəyanat. Qarabağdakı ermənilərə bir "etnik təmizləmə təhlükəsi" bəhanəsi ilə status istəyirlər...***

- Ermənistan üçün statusun müəyyənləşdirilməsi məsələsi indi fundamental xarakter daşıyır. Azərbaycanla sülh müqaviləsinin imzalanması yalnız bir halda mümkündür ki, Ermənistan Qarabağın Azərbaycanın bir hissəsi olduğunu tanısın. Və ümumiyyətlə, Ermənistan bunu etiraf etməyə hazırdır ki, bu da başqa şeylərlə yanaşı, ifadənin "Qarabağ xalqı"ndan "əhali, sakinlər"ə dəyişdirilməsi ilə də sübut olunur. Mən bununla razılaşmağa hazıram, amma bir xəbərdarlıqla - onların fikrincə, muxtariyyətin ən yüksək səviyyəsi olmalıdır ki, bu da əslində de-fakto müstəqillik demək olardı. Yəni, Ermənistan muxtariyyət adı altında Qarabağa müstəqillik verilməsini tələb edir. Burada vəziyyətin çıxılmaz vəziyyətdə olduğu aydındır. Separatçı Qarabağ isə bu onilliklər ərzində Ermənistanın özü tərəfindən tanınmayıb. Ermənistanın özü üçün İkinci Qarabağ müharibəsindən sonra vəziyyət dəyişdi. Azərbaycan isə heç bir muxtariyyətə razı olmayacaq, çünki Qarabağda muxtariyyət şəraitində yaşayan ermənilər ondan sui-istifadə edərək, separatizmlə məşğul olub və hər iki xalq üçün saysız-hesabsız fəlakətlərə səbəb olan müharibə kimi son dərəcə mənfi təcrübə olub. Ona görə də Azərbaycan muxtariyyətin istənilən formasının əleyhinədir. Azərbaycan hakimiyyəti Qarabağın erməni əhalisini İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan pasportu, bütün Azərbaycan vətəndaşları ilə bərabər hüquq və azadlıqlarla təmin etməyə hazırdır.

Paşinyan niyə erməni əhalisinin təhlükəsizliyini və guya potensial təmizləmələrini bəyan edir? Bir tərəfdən, doğrudan da, Qarabağ münaqişəsi illərində iki xalq arasında sözün əsl mənasında bir-birinə nifrət hissi yaranıb. İndi İkinci Qarabağ müharibəsi başa çatdıqdan, Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyətindən sonra Ermənistandakı revanşist qüvvələr Azərbaycanın Türkiyə ilə birlikdə guya az qala etnik təmizləmə aparmaq istəməsi ilə əhalini qorxutmağa çalışırlar. Amma elə deyil. Axı ilkin olaraq Ermənistan tərəfi Azərbaycan ərazilərini işğal edib, Dağlıq Qarabağ Muxtar Vilayəti isə erməni separatizmi nəticəsində ayrılıb. Prinsipcə, tarixin göstərdiyi kimi, erməni mentaliteti çox vaxt belədir, açıq-aşkar ultramillətçiliklə. Bu sözlərdən zövq alan Serj Sarkisyanın dediyini xatırlayırıq- onlar düşünürdülər ki, biz öldürə bilməyəcəyik, amma biz öldürdük. Nifrət budur.

Əgər Ermənistan monoetnik ölkədirsə, Azərbaycan çoxmillətli, multikultural ölkədir. Multikulturalizm onun ideologiyasıdır. Əgər Ermənistanda digər millətlərin nümayəndələri son dərəcə azdırsa, Azərbaycanda, bildiyiniz kimi, müxtəlif millətlərin nümayəndələri, o cümlədən ermənilər yaşayır.

Ona görə də bu gün "təmizləmələr"lə bu cür hədə-qorxu həm də Azərbaycanla sülh müqaviləsinin imzalanması baxımından siyasi təzyiq alətidir. Ermənistan əslində mümkünsüz şərt qoyur. Və beləliklə, başqa şeylərlə yanaşı, sülh müqaviləsinin mətninin razılaşdırılması baxımından da vaxtı uzadır. Axı rəsmi Bakı Brüssel görüşündən əvvəl mətn üzərində işin başlanacağını gözlədiyini açıqlamışdı. Hələ apreldə bununla bağlı razılaşma var idi, lakin Ermənistan Azərbaycandan fərqli olaraq öz tərəfdən işçi qrupu yaratmayıb.

***- Paşinyan yenə təzyiq edir ki, status məsələsi ATƏT-in Minsk qrupu vasitəsilə həll olunmalıdır və heç kim onun mandatını ləğv etməyib.***

- ABŞ və Fransanın ermənipərəst mövqe tutduğu məlumdur. Ona görə də Paşinyan Minsk qrupunu "canlandırmağa" çalışır, çünki o, güclü erməni diasporu, lobbisi olan ölkələri təmsil edir.

Azərbaycan öz prinsipindən çıxış edir ki, Qarabağ məsələsi həll olunub və ayrıca Qarabağ yoxdur, ancaq Azərbaycanın tərkibində Qarabağ var. Ermənistan separatçı Qarabağın mövcud olduğunu sübut etməyə çalışmaqda davam edir.

***- Amma deyək ki, Şarl Mişelinin avqustun 31-də Brüsseldə keçirilən üçtərəfli danışıqların yekunlarına dair bəyanatında Qarabağ məsələsi ilə bağlı heç nə qeyd olunmur... Baxmayaraq ki, Ermənistan hökumətinin mətbuat xidmətinin bəyanatında bu məsələnin qaldırıldığı iddia edilir...***

- Ümumiyyətlə, Fransa Avropa Şurasının rəhbərinə təsir edir. Ona görə də Ermənistanın xeyrinə daha çox qərəzli münasibət var. Amma düşünürəm ki, danışıqlardan əvvəl Azərbaycan tərəfi bir daha Mişelə xəbərdarlıq etdi ki, əgər o, Azərbaycanı qane etməyən terminologiyadan istifadə edərsə, bu, eyni formatda sonuncu üçtərəfli görüş olacaq. Avropa Şurasının rəhbəri isə Bakının sərt mövqeyindən sadəcə çəkinirdi.

***- Ümumiyyətlə, Brüssel görüşünün nəticələrini necə şərh edirsiniz?***

- Əslində, məncə, burada heç bir nəticə ola bilməz. Çünki Aİ-nin əsas məqsədi Ermənistanla Azərbaycan arasında nizamlanmanı təşviq etmək deyil, Rusiyanı vasitəçi mövqeyindən sıxışdırmaqdır. Aİ faktiki olaraq danışıqlar prosesini imitasiya etməyə çalışır. Aİ müəyyən mənada ATƏT-in Minsk qrupunun siyasətini davam etdirir. ATƏT-in Minsk qrupu erməni qərəzliliyi ilə onilliklərdir ki, danışıqlar prosesini imitasiya edir, real danışıqlar əvəzinə, danışıqlar xatirinə danışıqlar aparır. Və buna görə də praktiki olaraq heç bir nəticə vermədi, işdə tamamilə uğursuz oldu. Bu səbəbdən indi Azərbaycan belə sərt mövqe tutaraq rədd edir. Bu səbəbdən Minsk Qrupu heç nə etmədi, ikinci Qarabağ müharibəsi başladı. İndi Brüssel faktiki olaraq Minsk qrupunun işini davam etdirir.

***- Bəs Rusiya necə?***

- Rusiya isə, məncə, əslində, amma daha çox bağlı qapılar arxasında işləyir. Aİ isə sadəcə gözə kül üfürür. Rusiya da öz növbəsində Azərbaycanla Ermənistan arasında sərhədin demarkasiyası və delimitasiyası üzrə işçi qrupu, nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması üzrə işçi qrupu yaradıb və bu istiqamətdə ciddi iş aparır. Bunlar Rusiyanın himayəsi və vasitəçiliyi ilə işləyən real strukturlardır. Real iş gedir. Təbii ki, saatları tutuşdurmaq üçün Putin, Əliyev və Paşinyanın görüşməsi yaxşı olardı. Amma Rusiya prezidenti konkret razılaşmalar üçün şərtlər formalaşan zaman görüşməyə üstünlük verir. Hazırda bu istiqamətdə iş gedir.

***- Yaxşı, bu halda hadisələr necə inkişaf edə bilər?***

- Əminəm ki, Qarabağın qalan hissəsi onsuz da Azərbaycanın nəzarətinə qayıdacaq. Bu zaman məsələsidir. Ermənistan üçün İkinci Qarabağ müharibəsindən sonra vəziyyət dəyişdi. Amma o, zamanla oynayacaq. Əslində, Paşinyan sülh müqaviləsinə çoxdan razı olardı, amma imkan vermirlər. Odur ki, İrəvan Qarabağın "statusu" ətrafında belə bir saxtakarlıq etmək və danışıqlar prosesinin təkərlərinə çubuqlar qoymaq istəyir. İndi problemin həll olunmadığını göstərmək istəyir. Əslində, Ermənistana sülh müqaviləsinin müzakirəsinə başlamağı ilk təklif edən, bununla bağlı işçi qrupu yaradan Azərbaycan bir daha siyasi liderliyini nümayiş etdirdi. Azərbaycan Prezidenti sülh yolu ilə həll üçün 5 prinsip irəli sürüb. O, prosesi irəli aparmağa çalışır, göstərir ki, Azərbaycan həm prosesə rəhbərlik edir, həm də onu itələyir, siyasi və diplomatik liderliyini, müdrikliyini nümayiş etdirir. O, hazırda həlli çətin olan, lakin çox vacib, əsaslı bir məsələdə liderlik edir. Əliyev çox təcrübəli diplomat olduğundan bir lider kimi bunu başa düşür.

Paşinyanın isə imkanları azdır, o, küçə siyasətçisidir və getməlidir. Ona görə də qaşlarını qaldırıb mantra kimi təkrar edir: sən muxtariyyət verənə qədər heç nə olmayacaq.

Ona görə də hesab edirəm ki, sülh müqaviləsinin mətninin Ermənistanla razılaşdırılması hələ ki, mümkün deyil. Yəni hər şey təxminən İkinci Qarabağ müharibəsi bitdikdən sonra necə idisə, elə də olacaq. Rusiya bağlı qapılar arxasında tərəqqiyə nail olmağa və ola bilsin ki, nəqliyyat dəhlizləri və sərhədlərin delimitasiyası üzrə irəliləməyə çalışacaq. Avropa İttifaqı və ABŞ Rusiyanı bu yoldan çıxarmağa çalışacaq. Eyni zamanda, erməni diasporu vəziyyəti partlamağa, inadla Rusiya ilə Türkiyəni dava etməyə çalışacaq. Erməni diasporunun çox təxribat xarakterli aksiyalar təşkil etməyə çalışacağını istisna etmirəm. Onlar bilirlər ki, Azərbaycana zərbə vururlarsa, Rusiya-Türkiyə münasibətlərinə də zərbə vurmalıdırlar. Erməni diasporu üçün Qarabağ İrəvan ermənilərindən, hətta Qarabağ ermənilərindən qat-qat önəmlidir. Bir çox Qarabağ erməniləri, məncə, əgər onlara firavan həyat üçün real təminat verilsə, məmnuniyyətlə onlardan ayrılacaqdılar. İrəvan erməniləri də bu Qarabağ klanından bezib.

Erməni diasporu üçün isə Qarabağ mövzusu və "soyqırım" mövzusunu diaspora konsolidasiya edir. İnsanlar öz vətənlərindən uzaqda yaşayanda onları birləşdirəcək bir şeyə ehtiyac duyurlar. Əks halda diasporun dağılması təhlükəsi var. Ona görə də erməni diasporu Qarabağ probleminin qalması üçün hər şeyi edir. Müxalifəti, o cümlədən Qarabağdakı separatçıları qidalandırır. İndi separatçılar ABŞ-a uçurlar. Və bundan əvvəl müxalifət Brüsselə uçmuşdu. Qarabağ problemini İrəvanlılar həll etsəydi, çoxdan həll edərdilər, problemli Qarabağ onları maraqlandırmır. Diaspora həmişə bu problemə qarışacaq, onu təkan verməyə çalışacaq.

Bundan əlavə, millətçilər- Daşnaksütyun, Sasna Tsrer də sülh nizamlanmasını pozmağa, kiçik bir müharibənin köməyi ilə indiki baş naziri devirmək üçün Moskva və Paşinyanı əlavə olaraq sıxışdırmağa çalışacaqlar. Ona görə də hesab edirəm ki, gələcəkdə toqquşmalar qaçılmazdır. Ona görə də sülh müqaviləsi məsələsi hələ də mürəkkəbdir, amma əminəm ki, olacaq. Azərbaycan sakitcə və israrla onun üstünə gedəcək.

**Tərcümə - Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
6 sentyabr
2022-ci il



## XƏBƏRDARLIQ: Bu gün Dağlıq zonalarda leysan yağacaq!

Azərbaycanda sentyabrın 6-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi gözlənilir. Havanın temperaturunun Abşeron yarımadasında gecə 18-20°, gündüz 23-26° isti, Bakıda gecə 18-20° isti, gündüz 23-25° isti olacağı ehtimal edilir.

Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 25-29° isti, dağlarda gecə 3-8°, gündüz 9-14° isti olacağı bildirilir.

## Uşaqlara qarşı işgəncələrlə

## NECƏ MÜBARİZƏ APARILMALIDIR?

**"Bağçalarda, hətta loqopedik və psixoloji mərkəzlərdə də uşaqlara qarşı işgəncələr artıb". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Cəmilə Abbasova bildirib. Onun sözlərinə görə, hər bir uşaq özəldir, önəmlidir, daha isə "xüsusi qayğıya" ehtiyacı olan uşaqlardır: "Şiddət heç nəyin həll yolu deyildir. Daha da belə hərəkətlər uşaqlarda aqressiya, davranış pozuntusu, müəllimdən, məktəbdən qorxu yaradır. Ani səslərə, hərəkətlərə reaksiya verirlər.**

İstər müəllim, istər loqoped və ya psixoloq seçərkən ilk öncə diplomu varmı, hansı ixtisasa sahibdir ona baxılmalıdır. Hal-hazırki, zamanda sadəcə 5 aylıq kurlara gedərək özünü müəllim, psixoloq adlandıranlar çoxdur və bu qeyri-etikdir. Çünki dürüst bir mövqeye gəlib çatmaq müəyyən zaman tələb edir. Sonra həmin işə götürülənin psixoloji müayinə olunması vacibdir, hətta mütləqdir. Psixoloji problemi varmı? Sinirləri hansı vəziyyətdədir? "Xüsusi" uşaqla və ya normal uşaqla işləyə biləcəkmi? Psixoloji durumu buna əl verirmi? Bunlar hamısı önəmlidir. Unutmamaq lazımdır ki, şiddət şiddət doğurur!".

*Abutel İlhamqızı*



## "Hyundai" aşdı, 1 qadın öldü



Goranboyda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC xəbər verir ki, hadisə rayonun Zeyvə kəndində qeydə alınıb. Hərəkətdə olan "Hyundai" markalı minik avtomobilinin sürücüsü idarəetməni itirib. Nəticədə avtomobil yoldan çıxaraq aşıb. Hadisə zamanı 1 qadın ölüb, xəsarət alan 3 nəfər isə xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

## DİQQƏT: Duzun orqanizmə vurduğu 6 ziyan



**Yeməyin dadını artırmaq üçün istifadə olunan duz həddindən artıq istehlak edildikdə bir çox sağlamlıq probleminin yaranmasına gətirib çıxarır. Axşam.az-a istinadən duzun yaratdığı xəstəlikləri təqdim edirik.**

**1. Hipertoniya**

Yüksək qan təzyiqi həddindən çox duz istehlakı ilə birbaşa əlaqəlidir. Bu da ürək çatışmazlığına, böyüməsinə və infarktlara gətirib çıxara bilər. Gündəlik tövsiyə olunan duz qəbulu təxminən 5 qram, bir çay qaşığıdır. Mənşəyindən asılı olmayaraq xörək duzu natrium xloriddir və onun çoxluğu ürək xəstəlikləri riskini artırır.

**2. Böyrək xəstəlikləri**

Həddindən artıq duz qəbulu kalsiumun bədəndən sidik vasitəsi ilə çıxarılmasını sürətləndirir. Orqanizmdə kalsium azaldıqda bağırsaqda onun istehlakı artır. Bu da öz növbəsində böyrək daşlarının yaranmasına yol açır. Duzun yüksək dozda qəbulu böyrəklərin daha çox işləməsini tələb edir ki, bu da onların ömrünü qısaldır.

**3. İnsult riski**

Gündəlik sidikdə natriumun miqdarı nə qədər çox olarsa, insult riski bir o qədər çoxdur deməkdir.

**4. Piylənmə**

Həddindən artıq duz istehlakı çəkinin artmasına gətirib çıxarır. Şəkərli qidalar qədər istehlak etdiyiniz duzlu qidalar da çəkiyə ciddi təsir edir.

**5. Osteoporoz**

Duz sümüklərdən kalsiumun xaric olunmasını, sümük strukturunun zəifləməsini, kövrəkliyinin artmasını sürətləndirir. Oturaq həyatın artması və duzlu "fast-food" istehlakı sümüyün gücünün azalmasına və zamanla qırılmasına gətirib çıxarır.

**6. Ödəm**

Həddindən artıq duz qəbulu davam edərsə, orqanizmdə duz yığılır. Hər bir duz molekulu 4 su molekulunu bağlayır və ürək çatışmazlığı, ödəm, ağciyər ödəmi kimi problemlər yaradır. Ödəm bir çox tibbi problemlərdən, həmçinin hərəkətsizlikdən, karbohidratlı qidalardan və həddindən artıq duz istehlakından qaynaqlanır. Hüceyrələrdə artıq mayenin yığılmasının qarşını almaq üçün duzu istehlakını azaltmaq lazımdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**